RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 118 (8711) ÇƏRŞƏNBƏ, 9 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az







# Tarixi dəyişən qayıdış

## 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələn Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını cəsarətlə, qətiyyətlə yerinə yetirdi

Tarix sübut edir ki, xalqların və dövlətlərin üzləşdiyi fəlakətlərin aradan qaldırılmasında şəxsiyyətlərin qətiyyəti, prinsipiallığı, tutduqları mövqe və xarizması böyük əhəmiyyətə malikdir. 1991-1993-cü illərdə Azərbaycanın üzləşdiyi dərin siyasi böhran, anarxiya və xaotik proseslər təsdiq edirdi ki, yalnız qətiyyətli, iradəli siyasi lider xalqın başının üstünü almış bütün təhlükələri aradan qaldıra, hələ kövrək olan müstəqilliyimizi yaşada bilər.

### Ümumxalq qərarı

1993-cü ildə ölkə ictimaiyyətinin ümid bəslədiyi, inandığı lider Heydər Əliyev idi. Dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq ağır sosial-iqtisadi gərginliyin pik həddinə çatdığı, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, cəbhədə torpaqlarımızın itirildiyi, Azərbaycanın dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi vaxtda xalqın özünün böyük oğlu, həyatı və mübarizəsi üçün ümummilli liderlik missiyasını yerinə yetirə biləcək Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Hər kəs yaxşı anlayırdı ki, ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri, Gəncədə başlamış qardaş qırğınını, hərbi xəyanəti, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü yalnız zəngin dövlətçilik təcrübəsi olan bu böyük insan aradan qaldıra bilərdi. Bunun üçün Naxçıvana - Ulu Öndərin ünvanına yüzlərlə məktub, teleqram göndərilirdi. Bu müraciətlər təkcə maddi-mənəvi iztirablara məruz qalan bir xalqın sadəcə vəziyyətdən çıxış yolu deyildi. Bu həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün qəbul edilən tarixi bir ümumxalq qərarı idi.

Ölkənin ağır bir vəziyyətində iqtidar da, müxalifətdə olanlar da xilas olmaq üçün Heydər Əliyevin Bakıya gəlməsini istəyirdi. İflasa uğradıqları ilə barışmalı olan cəbhəçilər vəziyyətdən çıxış yolunu Heydər Əliyevin Bakıya dəvət edilməsində görürdülər. Hansı ki buna qədər özlərinə əsas təhlükə, ən ciddi rəqib xalqın içərisində böyük hörməti və nüfuzu olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevi hesab edir və onu necə sıradan çıxarmaq barədə düşünürdülər. Bu niyyətin gerçəkləşməsi üçün hətta 1992-ci ilin oktyabrında Naxçıvanda Heydər Əliyevə qarşı çevriliş etməyə, onu Ali Məclisin sədri vəzifəsindən devirməyə cəhd etmişdilər. Buna baxmayaraq Heydər Əliyev cəbhəçilərin ən çətin məqamlarında onlara kömək əlini uzatmış, Gəncədə başlayan və sürətlə dərinləşən hakimiyyət böhranı zamanı başını itirmiş iqtidarın xahişlərini nəzərə alıb, yalnız dahilərə məxsus ürək genişliyi ilə hamını dövlət başçısı ətrafında birləşməyə çağırmışdı.

Heydər Əliyev həqiqətən böyük insan idi. Onun böyüklüyü həm də onda idi ki, hakimiyyətin ona qarşı həyata keçirdiyi təxribatlara, qarayaxma kampaniyasına baxmayaraq ağır günlərdə xalqın köməyinə tələsdi. Ulu Öndər sonralar həmin vaxtları xatırlayaraq deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

### Antiazərbaycançı şəbəkənin planları iflasa uğradı

1993-cü il iyunun 9-da Heydər Əliyev xüsusi təyyarə ilə Bakıya gəldi. Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda dahi öndərin gəlişi respublika əhalisində böyük ümidlər yaratdı. Çünki ölkəni çətin vəziyyətdən ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə hamı qəlbən inanırdı. İnsanlar "Heydər baba, xalqı bu bəladan qurtar!" kimi şüarlarla Ulu Öndəri qarşılamaq üçün hava limanına toplanmışdılar. Ən əsası, Ulu Öndərin gəlişi ilə daxili və xarici düşmənlərin bütün planlarının iflası başladı. Bakıya gəldikdən sonra parlamentə sədr seçilmək barədə xahişləri qəbul etməyən Heydər Əliyev Gəncədə yaranmış vəziyyətlə tanış olmaq üçün ora yola düşdü.

Ardı 4-cü səh.

## Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 660,0 (altı yüz altmış) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2021-ci il*

◆ **Milli Məclisin iclasında**

## Dövlət büdcəsi inkişafa böyük töhfələr verir

İyunun 8-də VI çağırış Milli Məclisin növbədənkənar sessiyası öz işinə başlayıb. Milli Məclisin sədri Sahibə Qafarova sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Əvvəlcə Milli Məclisin sədri mayın 31-dən iyunun 4-dək Azərbaycan parlamenti nümayəndə heyətinin Pakistan İslam Respublikasına işgüzar(1-2 iyun) və rəsmi (3-4 iyun) səfəri barədə məlumat verib.

Öncə İslamabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İkinci Ümumi Konfransından söz açan Sahibə Qafarova xatırladıb ki, İƏT regional dövlətlərarası iqtisadi təşkilatdır və öz sıralarında 10 dövləti - Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Tacikistan, Türkiyə və Türkmənistanı birləşdirir.

Üzv ölkələrin parlament sədrlərinin çıxışları ilə başlanan tədbirdə Milli Məclisin sədri iştirakçıların nəzərinə çatdırıb ki, Azərbaycan nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən İƏT ilə əlaqələrin inkişafına böyük önəm verir. Biz hesab edirik ki, təşkilatın üzvü olan ölkələr arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi günün tələbidir.

İƏT PA-nın İkinci Ümumi Konfransında regional inteqrasiya naminə parlament tərəfdaşlığının təşviq edilməsinə dair aparılan fikir mübadiləsi zamanı Azərbaycan parlamentinin rəhbəri dünya birliyini təhdid edən qlobal problemlərin həlli yollarına ümumi yanaşmaların müəyyən edilməsində parlamentlərarası əməkdaşlığın və parlament diplomatiyasının rolundan danışıb.

Ardı 2-ci səh.

## İlham Əliyev Azərbaycanı həm də idman ölkəsi edib

Mötəbər idman və mədəni-kütləvi tədbirlərin təşkili ilə bağlı bütün dünyada bir ildən də çox çəkən məhdudiyyətlərdən sonra Bakıda "Formula-1" yarışlarının start götürməsi vətəndaşlarımızda xoş əhval yaratdı. Hamı pandemiyanın ağır sosial-psixoloji təsirlərinin tədricən başa çatmaqda olmasına, həyatımızın addım-addım normala dönməsinə sevinir. Bakı küçələrində yürüşə çıxmış bolidlərin yaratdığı xoş həyəcan bunun müjdələrindəndir.

Azərbaycan bütün dünyaya sülh və əmin-amanlıq gətirmək, indikindən daha sabit, gərginliklərdən, qanlı qarşıdurmalardan azad bir dünya qurmaq arzusunu və bəşəriyyətin tərəqqipərvər qüvvələri ilə birgə bu arzunu gerçəkləşdirmək əzmini göstərir. Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü daxili və xarici siyasətin uğurları sayəsində tarixinin ən qüdrətli mərhələsinə qədəm qoymuş ölkəmizin əldə etdiyi nailiyyətlər xalqımızın qalibiyyət əzmini, zəfər qüdrətini, Vətən sevgisini daim sübuta yetirir.

### Bu yarışlar bizi dünyaya tanıdır

"Formula-1" yarışları bütün dünyada böyük maraqla izlənir. Bizim adətən qısaca olaraq "Formula-1" kimi tanıdığımız idman tədbiri açıq təkər tipli avtomobillərin dövrəvi avtoyürüşləri üzrə dünya çempionatıdır. Belə bir dünya çempionatı 1950-ci ildən başlayaraq hər il keçirilir. Qran-pri statusu daşıyan yarış ayrı-ayrı mərhələlərdən ibarət olur. Dünyada avtomobil həvəskarlarının sayı çox olduğundan bu yarışları bütün ölkələrdə diqqətlə izləyirlər. Üstəlik, yarışlarda dünya iqtisadiyyatında çox mühüm paya malik avtomobil istehsalçıları iştirak edirlər və bu da tədbirin əhəmiyyətini artırır.

Azərbaycana qədər "Formula-1" yarışları 20 ölkədə keçirilirdi. Azərbaycan 2016-cı ildən etibarən bu yarışa evsahibliyi etməyə başlayan 21-ci ölkə oldu.

Ardı 6-cı səh.

## Erməni faşizmi - terror və riyakarlıq onların siyasətidir

### Vaxtilə işğalçını öz adı ilə çağırmayan beynəlxalq birlik indi də onun insanlıq əleyhinə cinayətlərinə göz yumur

*"Hesab edirəm ki, müasir dünya ikinci belə vəhşilik görməmişdir. Əliyalın insanları yandırıblar, öldürüblər, uşaqları yandırıblar. Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır... Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir. İnsanlığa qarşı törədilmiş cinayət bunu bir daha göstərir".*

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərimizdən sonra işğaldan azad edilən ərazilərimizə gedərək erməni vandalizminə şahidlik edən Prezident İlham Əliyev mənfur düşmənin bu əməllərini belə qiymətləndirmişdi.

Bu gün də Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycan xalqına qarşı cinayəti və terror əməli davam edir. İkinci Qarabağ müharibəsində məğlub olaraq Azərbaycan qarşısında diz çökən Ermənistan imza atdığı kapitulyasiya aktının müddəalarında göstərilənləri icra etmək əvəzinə yenə də çirkin, məkrli oyunlar oynayır.

İşğaldan azad olunmuş ərazilərimizdə Ermənistan silahlı birləşmələri tərəfindən basdırılmış minaların xəritəsinin verilməsi barədə təkidli tələblərə baxmayaraq, məğlub ölkə bundan israrla boyun qaçırır, müraciətlərə məhəl qoymur. Bunun da nəticəsində Ermənistan tərəfindən basdırılmış minalar mülki əhalinin, hərbçilərin həlak olmasına, yaralanmasına səbəb olur. Bax, əsl faşist ideologiyası budur.

### Sülh və sabitliyə qarşı məqsədyönlü cinayət

Növbəti faciəvi hadisə iyunun 4-də baş verdi və bu dəfə erməni təxribatının qurbanı peşə fəaliyyətini yerinə yetirən jurnalistlər - Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov, AzTV-nin operatoru Sirac Abışov və Kəlbəcər rayonunun Susuzluq kənd icra nümayəndəsinin müavini Arif Əliyev oldu.

Bu hadisə Ermənistanın məqsədyönlü cinayətlərinin, qəsdlə törədilmiş terror aktının daha bir acı nəticəsidir. Bu cür terror hərəkətlər açıq-aşkar göstərir ki, Ermənistan bölgədə sülhün və sabitliyin yaranmasına davamlı olaraq maneçilik törədir. Bu, dinc insanların həyatına qəsd olmaqla yanaşı, bütün insanlığa qarşı törədilən açıq-aşkar terror aktıdır.

Son günlərdə bu ölkənin silahlı birləşmələrinin kəşfiyyat-diversiya dəstələri Ermənistan-Azərbaycan dövlət sərhədində, o cümlədən Kəlbəcər rayonu istiqamətində Azərbaycan ərazilərinin dərinliyinə daxil olaraq yolların minalanmasına yönəlmiş təxribat terror fəaliyyəti həyata keçirməyə cəhd göstərirlər. İlkin ehtimala görə, jurnalistlər həmin diversantlar tərəfindən basdırılmış minaya düşüblər. Baş verənlər Ermənistan tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və keçid yollarını növbəti minalama cəhdlərinin faciəvi nəticəsinə daha bir sübutdur.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi İnstaqram səhifəsində hadisə ilə bağlı etdiyi paylaşımda da qeyd edilir ki, müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçıları tərəfindən quraşdırılmış minalara düşüb. Onlardan 27-si həlak olub.

Ardı 5-ci səh.






## Fransadan Azərbaycanadək...

### 61 il öncə Parisdə başlayan Avropa futbol çempionatının XVI yarışlarına Bakı da evsahibliyi edəcək

*Futbolsevərlərin böyük həyəcanla gözlədiyi an gəlib çatır. Bir neçə gündən sonra "köhnə qitə"nin 11 şəhərində futbol üzrə sayca XVİ Avropa çempionatı start götürəcək. Xatırladaq ki, ötən il keçirilməli olan çempionat pandemiya səbəbindən bu ilə təxirə salınmışdı. Çempionata Bakı, Sankt-Peterburq, London, Münxen, Roma, Buxarest, Sevilya, Kopenhagen, Qlazqo, Budapeşt və Amsterdam şəhərləri evsahibliyi edəcək.*

Ardı 6-cı səh.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan sevinc hissi duyuruq.

Bu xoş fürsətdən istifadə edərək dost ölkələrimiz arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrindənməmnunluğumuzu ifadə edir, Sizə uzun ömür, möhkəm cansağlığı, dost xalqınıza davamlı inkişaf və rifah arzulayırıq.

*Dərin hörmətlə,*

***Sabah Xalid əl-Həməd ƏL-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

## Bosniya və Herseqovina parlament nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib

İyunun 8-də Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının Sədri Bakir İzetbeqoviçinin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.

Heydər Əliyev Beynəlxalq Hava Limanında qonaqları Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Bosniya və Herseqovina ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Məzahir Əfəndiyev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Bosniya və Herseqovina Parlament nümayəndə heyəti Azərbaycan rəsmləri ilə bir sıra görüşlər keçirəcək, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparacaq.

Səfər iyunun 10-da başa çatacaq.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

## Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycan iqtisadiyyatını dəstəkləməyə hazırdır



İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Qafqaz üzrə regional direktoru xanım Katarina Byorlin Hansenlə görüşüb.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla EBRD arasında əməkdaşlığın yüksək səviyyədə olduğu, ölkəmizin bankla əlaqələrin inkişafına önəm verdiyi qeyd edilib. Beynəlxalq maliyyə institutları, o cümlədən EBRD ilə birgə həyata keçirilən layihələrdə qabaqcıl təcrübənin, müasir texnologiya və yeniliklərin ölkəmizdə tətbiqı xüsusilə əhəmiyyətlidir. Görüşdə Azərbaycanın sosial-iqtisadi inkişafı prioritetləri barədə məlumat verilib, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması istiqamətində Azərbaycan İnvestisiya Holdinqi, Sahibkarlığın İnkişafı Fondu və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə AYİB arasında əməkdaşlıq imkanları diqqətə çatdırılıb. İqtisadiyyat naziri bildirib ki, EBRD ilə müxtəlif sahələr, xüsusilə dövlət-özəl tərəfdaşlığı, "yaşıl iqtisadiyyat" və bərpaolunan enerji üzrə əlaqələrin genişləndirilməsi potensialı böyükdür. EBRD-nin Qafqaz üzrə regional direktoru bankın Azərbaycanla səmərəli və uzunmüddətli əməkdaşlığını qeyd edib, ölkəmizin iqtisadi perspektivlərinin əlaqələrin inkişafına şərait yaratdığını və qurumun bundan sonra da Azərbaycan iqtisadiyyatını dəstəkləməyə hazır olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan-EBRD əməkdaşlığının genişləndirilməsi istiqamətləri, bankın maliyyə dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələr barədə müzakirələr aparılıb.

## Azərbaycan və Türkiyə arasında bir çox sahədə tərəfdaşlığın gücləndirilməsi potensialı böyükdür



İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanda diplomatik fəaliyyətə başlayan Türkiyənin fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı ilə görüşüb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, M.Cabbarov səfiri yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib, Azərbaycanda fəaliyyətinin ikitərəfli əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini bildirib. Vurğulanıb ki, dövlət başçılarının siyasi iradəsi, dostluq-qardaşlıq münasibətləri və verdikləri tapşırıqların icrası əməkdaşlığın inkişafında mühüm rol oynayır, Azərbaycan-Türkiyə əlaqələri yüksələn xətlə inkişaf edir. 44 günlük Vətən müharibəsi zamanı qardaş Türkiyənin güclü siyasi və mənəvi dəstəyi ölkələrimizin daim bir-birinin yanında olmasına bariz nümunədir.

İki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişafından danışan iqtisadiyyat naziri diqqətə çatdırıb ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Azərbaycanda fəaliyyət göstərən Türkiyə şirkətlərinin sayı artır, ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Azərbaycan və Türkiyə hökumətləri arasında imzalanmış Preferensial Ticarət Sazişi ikitərəfli ticarət əlaqələrinin genişlənməsinə əlavə stimul verəcək. Bildirilib ki, Azərbaycan və Türkiyə arasında nəqliyyat-tranzit, enerji, rəqəmsal iqtisadiyyat, kiçik və orta sahibkarlıq, turizm, humanitar və sair sahələrdə tərəfdaşlığın gücləndirilməsi potensialı böyükdür.

Görüşdə, həmçinin işğaldan azad olunmuş ərazilərimizin bərpasında, quruculuq işlərinin həyata keçirilməsində Türkiyə şirkətlərinin iştirak imkanları, Azərbaycanın bu prosesdə Türkiyə şirkətlərini dəstəklədiyi diqqətə çatdırılıb.

Azərbaycanda diplomatik fəaliyyətə başlamağından məmnunluğunu ifadə edən C.Bağcı ölkələrimizin qarşılıqlı dostluq və qardaşlıq münasibətlərini, strateji müttəfiqliyini vurğulayıb, diplomatik fəaliyyəti dövründə iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsinə səy göstərəcəyini bildirib.

Tərəflər əməkdaşlığın inkişafı istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

**◆ Milli Məclisin iclasında**

# Dövlət büdcəsi inkişafa böyük töhfələr verir



*Əvvəli 1-ci səh.*

Qeyd edib ki, təşkilatın üzvü olan ölkələr arasında inteqrasiya proseslərinin güclənməsi bölgələrimizin zəngin təbii ehtiyatlarının, nəqliyyat imkanlarının və intellektual potensialının daha səmərəli istifadəsinə kömək edəcək. Sahibə Qafarova xüsusi vurğulayıb ki, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı ilə üzüzə qalsa da, uğurlu regional layihələrin həyata keçirilməsinə nail olub, enerji təhlükəsizliyinin təmin edilməsində və enerjinin çatdırılma marşrutlarının şaxələndirilməsində mühüm tərəfdaşa çevrilib. Ötən ilin sonlarında Azərbaycan erməni işğalına son qoyaraq ərazi bütövlüyünü bərpa edib. Bununla da bölgədə iqtisadi inteqrasiya üçün yeni imkanlar yaranıb. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpasına dair genişmiqyaslı proqramlar icra edilməkdədir. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərində bir sıra ölkələrin, əsasən Azərbaycanın dostu olan ölkələrin şirkətləri də iştirak edir.

Plenar iclasda deputatların nəzərinə çatdırılıb ki, İƏT PA-nın İkinci Ümumi Konfransı çərçivəsində qadın parlament üzvlərinin iclası keçirilib. Həmin iclasın ilk sessiyasına Azərbaycan parlamentinin rəhbəri Sahibə Qafarova sədrlik edib. Konfransın ayrı-ayrı mövzulara həsr edilən panel iclaslarında Azərbaycan nümayəndə heyətinin üzvləri fəal iştirak ediblər.

Bildirilib ki, konfransın gedişində Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi və Baş nazir İmran Xan milli nümayəndə heyətlərinin rəhbərləri ilə görüşərək söhbət aparıblar, sonra isə bütün nümayəndə heyətləri qarşısında çıxış ediblər.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyətinin keçirdiyi ikitərəfli görüşlərdən bəhs edən spiker Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop, Özbəkistan Ali Məclisi Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilov, Əfqanıstan Milli Assambleyası Xalq Palatasının Sədri Mir Rahman Rahmani ilə aparılan danışıqların parlamentlərarası əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli olduğuna əminlik ifadə edib.

Məlumat verilib ki, həmin görüşlər zamanı torpaqlarımızın 30 ilə yaxın erməni işğalı altında olması, erməni vandallarının işğal dövründə şəhər və kəndlərimizi viran qoyması, 44 günlük Vətən müharibəsi nəticəsində işğalın aradan qaldırılması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, eləcə də müharibədən sonrakı dövrdə Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi, hərbi qulluqçularımızın və dinc sakinlərin minalara düşərək həlak olması barədə məlumatlar hər bir nümayəndə heyətinin nəzərinə çatdırılıb.

Qeyd olunub ki, konfransın yekunu olaraq imzalanan İslamabad Bəyannaməsinin müddəaları təşkilat üzvlərinin bölgələrimizdə tərəfdaşlıq və əməkdaşlıq proseslərini inkişaf etdirmək əzmində olduqlarını bir daha nümayiş etdirib.

Milli Məclisin sədri Azərbaycan nümayəndə heyətinin Pakistana rəsmi səfərinin də böyük uğurla keçdiyini vurğulayıb. Rəsmi səfər zamanı nümayəndə heyətimizin İslamabadda Azərbaycan səfirliyini ziyarət etdiyini, Ulu Öndər Heydər Əliyevin xatirəsinin anıldığını və onun büstü önünə gül qoyulduğunu bildirib.

Səfər çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi, Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysər, Pakistan Senatının Sədri Məhəmməd Sadiq Sancrani ilə, həmçinin hər iki qurumun dostluq qrupları ilə keçirilən görüşləri yüksək dəyərləndirən Sahibə Qafarova bildirib ki, görüşlərdə dost və qardaş ölkələr olan Pakistanla Azərbaycanın münasibətlərinin strateji müttəfiqlik səviyyəsində olduğu vurğulanıb. Spiker qeyd edib ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanla Pakistanın bir-birinə qarşılıqlı dəstəyi bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir.

Milli Məclisin sədri bir məqamı da diqqətə çatdırıb ki, rəsmi səfər zamanı keçirilən görüşlərdə ölkələrimiz arasında mədəni-humanitar münasibətlərin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanıb. Bildirilib ki, bu sahədə görülmüş dəyərli işlər sayəsində Mehriban xanım Əliyeva 2015-ci ildə Pakistanın ali mükafatı olan "Hilal-e Pakistan" ordeni ilə təltif edilib.

Azərbaycan-Pakistan qardaşlığının tarixinə toxunan spiker Pakistanın son 30 ildə Ermənistanı dövlət kimi tanımamasının və bu ölkə ilə münasibət qurmamasının xüsusi önəmindən danışıb, 2020-ci ilin mövcud dostluq tariximizdə yeni parlaq səhifə təşkil etdiyini bildirib. Xatırladıb ki, Vətən müharibəsinin ilk günlərindən etibarən Pakistan qətiyyətli mövqe sərgiləyərək Azərbaycanın haqq işini müdafiə edib, ölkəmizə siyasi və mənəvi dəstək göstərib. Bu 30 il ərzində göstərilən dəstəyə görə səfər zamanı Pakistan dövlətinə və parlamentinə Azərbaycan dövlətinin və xalqının dərin minnətdarlığı çatdırılıb. Eyni zamanda qeyd edilib ki, Xocalı faciəsi ilə əlaqədar Pakistanın parlamenti və müxtəlif qurumları tərəfindən qəbul olunmuş sənədlər böyük əhəmiyyət daşıyır.

Deputatlara məlumat verilib ki, həm Pakistan dövlətinin başçısı, həm də parlamentin hər iki palatasının rəhbərləri Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən böyük sevinc və qürur duyduqlarını bildiriblər, onlar söyləyiblər ki, Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək.

Səfər zamanı keçirilən görüşlərdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri ətraflı müzakirə olunub, ikitərəfli siyasi, iqtisadi, ticarət, mədəni əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

Milli Məclisin sədri hər görüşdə nəzərə çatdırıb ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Ermənistan Qarabağda başlanmış bərpa və quruculuq işlərinə mane olur, minalanmış ərazilərin xəritələrini vermir, sərhəddə təxribatlar törədir, ərazilərimizə terrorçuların keçməsinə şərait yaradır, müharibə başa çatdıqdan sonra Azərbaycan ərazisində həbs olunmuş təxribatçıları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır. Ermənistanın düşmənçilik hərəkətlərinin qarşısını almaq üçün beynəlxalq təşkilatlara təsir göstərilməsinin vacibliyi, müharibənin aylar öncə başa çatmasına baxmayaraq, Ermənistanın minaladığı ərazilərin xəritələrini verməməsi ucbatından hələ də hərbi qulluqçuların və dinc sakinlərin həlak olduğu pakistanlı parlamentarların diqqətinə çatdırılıb.

Sahibə Qafarova iyunun 4-də Kəlbəcər rayonu ərazisində mülki şəxslərin, o cümlədən 2 jurnalistin mina partlayışı nəticəsində həlak olduğunu da görüş iştirakçılarına bildirib, bu hadisənin Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha sübut etdiyini qeyd edib.

Plenar iclasda Kəlbəcərdə həlak olanlara Allahdan rəhmət diləklərini ifadə edən və yaralananların tezliklə sağalmasını arzulayan spiker qeyd edib ki, rəhmətə gedənlərin ailələrinə Milli Məclisin adından rəsmi başsağlığı verilib.

Bildirilib ki, səfər zamanı xanım Sahibə Qafarova Pakistanla Azərbaycan arasında parlamentlərarası və dövlətlərarası münasibətlərin inkişafına verdikləri töhfəyə görə Milli Məclisin Fəxri medalı ilə təltif edilmiş Pakistan parlamentinin 7 üzvünə, o cümlədən Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysərə və Pakistan Senatının Sədri Məhəmməd Sadiq Sancraniyə həmin Fəxri medalları təqdim edib.

Səfər çərçivəsində Pakistan Senatında və Milli Assambleyasında fəaliyyət göstərən Azərbaycanla parlamentlərarası dostluq qruplarının üzvləri ilə görüşlər də çox səmərəli olub. İki dost və qardaş ölkə arasında münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Spiker Sahibə Qafarovanın Pakistan səfəri barədə məlumatı dinlənildikdən sonra Milli Məclisin növbədənkənar sessiyası işinə başlayıb. Öncə 12 məsələdən ibarət gündəlik təsdiqlənib. Bildirilib ki, ölkəmizdə səfərdə olan Latviya Seyminin nümayəndə heyəti də plenar iclasda iştirak edir.

Cari məsələlərin müzakirəsində komitə sədri Musa Quliyev, deputatlar Jalə Əliyeva, Azər Badamov, Qüdrət Həsənquliyev, Sahib Alıyev, Fəzail Ağamalı, Razi Nurullayev, Kamal Cəfərov, Müşfiq Cəfərov, Bəhruz Məhərrəmov bir sıra məsələlərə toxunublar.

Çıxışlarda Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən Ermənistanın yerləşdirdiyi tank əleyhinə minaya düşərək həlak olan jurnalistlərin və onları müşayiət edən yerli icra hakimiyyəti nümayəndəsinin xatirəsinə ehtiram ifadə olunub. Vurğulanıb ki, beynəlxalq qurumlar və dünya dövlətləri mina xəritələrini Azərbaycana verməsi üçün Ermənistana təzyiq göstərməlidirlər. Ermənistan terror dövləti olduğunu, terrorizmi dövlət siyasətinə çevirdiyini bir daha təsdiqlədi.

Deputatlar Kəlbəcərdə baş verən hadisəyə münasibətdə yenə susqunluq nümayiş etdirən ATƏT-in Minsk qrupunun ləğvini təklif ediblər, həmçinin Novosibirskdə 19 yaşlı Vəkil Abdullayevi qətlə yetirən polisin azadlığa buraxılmasını, ardınca Rusiya KİV-də müşahidə olunan qeyri-adekvat münasibəti olduqca təhlükəli tendensiya kimi qiymətləndiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un təsdiq edilməsinə dair qanun layihəsi barədə parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyevin və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun məlumatları dinlənilib. Qanun layihəsi çox vacib və əhəmiyyətli sənəd kimi dəyərləndirilib. Vurğulanıb ki, bu sənədin ratifikasiyası qardaş Türkiyə ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə xidmət edəcək. Layihə qəbul edilib.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 2020-ci ilin dövlət büdcəsinin icrası Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi inkişaf və dəstək kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizik məsələlərinin həlli və iqtisadiyyatın qorunaraq stimullaşdırılması istiqamətində öz müsbət rolunu oynayıb. Eyni zamanda keçirilən müzakirələr zamanı bütövlükdə büdcə icrası layihəsinin gələcəkdə təkmilləşdirilməsi, büdcə qanunvericiliyi üzərində yeniliklərin həyata keçirilməsi, çatışmazlıqların aradan qaldırılması, bütün tərəflər arasında gələcəkdə əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində ümumi razılıq ifadə olunub.

Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi zamanı komitə sədrləri Qənirə Paşayeva, Tahir Rzayev, deputatlar Razi Nurullayev, Aydın Hüseynov, Nigar Arpadarai, Vüqar İsgəndərov, Tahir Kərimli fikirlərini bildiriblər. Çıxışlarda vurğulanıb ki, 2020-ci il dövlət büdcəsinin çox qeyri-adi şəraitdə icra olunmasına baxmayaraq, bütün hədəflərə nail olunub.

Maliyyə naziri Samir Şərifov ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı geniş çıxış edib və parlamentdəki müzakirələrdə deputatların qaldırdıqları məsələlərə münasibət bildirib. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Gündəlikdəki növbəti qanun layihələri barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədovun və Milli Məclisin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatları dinlənildikdən sonra "Kredit ittifaqları haqqında"qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul olunub.

Sonra parlamentdə birinci oxunuşda müzakirəyə təqdim olunmuş 8 qanun layihəsinə baxılıb. Növbəti 7 qanun layihəsi mahiyyətcə bir-birinə yaxın olduğundan onlar barədə parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ümumi məlumat verib. Bildirib ki, ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə təqdim edilmiş qanun layihələri zərfi əlilliyin qiymətləndirilməsinin yeni meyarlarını və qaydalarını müəyyən edir, həmçinin əlaqəli qanunlarda bu müddəalardan irəli gələn uyğunlaşma xarakterli dəyişiklikləri nəzərdə tutur.

Komitə sədri nəzərə çatdırıb ki, Azərbaycanın da qoşulduğu "Əlillərin hüquqları haqqında" BMT-nin Konvensiyası əlillik sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq və normalara uyğunlaşdırılmasını tövsiyə edir. Azərbaycan Prezidentinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun tətbiqi barədə" 18 iyul 2018-ci il tarixli fərmanı və "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 18 yanvar 2019-cu il tarixli fərmanı ilə əlilliyin müəyyən edilməsi meyarlarının və qaydalarının ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanması barədə hökumətə tapşırıq verilib.

Musa Quliyev bildirib ki, müzakirəyə çıxarılmış 7 qanun layihəsi həmin tələblərdən irəli gələrək hazırlanıb və ümumilikdə 60 qanunda 197 dəyişikliyi nəzərdə tutur. Əlillik siyasəti sahəsində baza qanunu hesab edilən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun 11 maddəsinə edilən 30 dəyişiklikdən əsas məqsəd əlilliyin təyinatı prosesində ünvanlılığın, şəffaflığın və sosial ədalətin təmin edilməsi, bu sahədə beynəlxalq təcrübənin və standartların tətbiqi, xidmət keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır.

Komitə sədri deputatların nəzərinə çatdırıb ki, qanunda indiyədək işlənən "əlillik dərəcəsi" ifadəsi "orqanizmin funksiyasının pozulması faizi" ifadəsi ilə əvəz olunur. Bu dəyişiklik qəbul olunandan sonra şəxsin əlillik vəziyyəti qiymətləndirilərkən ənənəvi 3 əlillik dərəcəsi deyil, orqanizmin funksiyalarının 30 faizdən yuxarı pozulması meyarı əsas götürüləcək. Yəni funksiyanın 31 faizdən 60 faizədək pozulması mövcud 3-cü dərəcəli əlilliyə, 61 faizdən 80 faizədək pozulması 2-ci dərəcəli əlilliyə, 81 faizdən 100 faizədək pozulması isə 1-ci dərəcəli əlilliyə uyğun qiymətləndiriləcək. Beləliklə, sağlamlığın pozulmasının faizlə qiymətləndirilməsi eyni ənənəvi əlillik dərəcəsi daxilində olan şəxslərin reabilitasiya potensialının, bərpa imkanlarının, reabilitasiya vasitələrinə ehtiyacının, yaxın gələcəkdə sosial müavinət və pensiya təminatının faizlər səviyyəsində dəqiq diferensiallaşmasına imkan yaradacaq.

Plenar iclasda 7 qanun layihəsini ətraflı şərh edən Əmək və sosial siyasət komitəsinin sədri bildirib ki, bu dəyişikliklər zərfi qəbul ediləndən sonra sosial müavinətlər və əmək pensiyaları haqqında qanunlara dəyişiklik edilməsi nəzərdə tutulur. Yaxın gələcəkdə aparılacaq islahatların növbəti mərhələsində pensiya və müavinətləri orqanizmin funksiyasının pozulma faizinə uyğun şəkildə artırmaqla əlilliyi olan şəxslərin sosial müdafiəsini daha ədalətli və etibarlı şəkildə təmin etmək mümkün olacaq.

Musa Quliyev 18 yaşınadək əlilliyi olan uşaqların reabilitasiyasına və sosial müavinətlə təminatına differensial yanaşma imkanı yaradacaq dəyişikliklərdən də bəhs edib. Yeni layihəyə görə, əlilliyin ekspertizası proseduru üçün sənədlər elektron qaydada TSEK-ə daxil olandan 10 gün, əlavə müayinə tələb olunan hallarda isə 15 gün müddət qoyulduğu bildirilib.

Qeyd olunub ki, layihələr hazırlanarkən əlilliyin müəyyən edilməsi meyarları sahəsində mövcud olan qabaqcıl beynəlxalq təcrübə ətraflı nəzərdən keçirilib. Bu məsələlər Əmək və sosial siyasət komitəsinin genişləndirilmiş iclasında qanun layihəsi subyektlərinin iştirakı ilə ətraflı təhlil və müzakirə olunub. Qanunun 2022-ci ilin 1 yanvarından qüvvəyə minməsi nəzərdə tutulur.

Sonra iclasda müzakirələr başlanıb. Öncə gündəlikdəki qanun layihələrinin müzakirə olunduğu 11 komitənin rəyi öyrənilib. Komitə sədrləri Zahid Oruc və Siyavuş Novruzov, komitə sədrlərinin müavinləri Əli Məsimli, Qüdrət Həsənquliyev və Sahib Alıyev, deputatlardan Azər Badamov, İlham Məmmədov, Rüfət Quliyev rəy və təkliflərini bildiriblər. Layihələr mütərəqqi qanun layihələri kimi dəyərləndirilib.

Komitə sədri Musa Quliyev deputat həmkarlarını maraqlandıran məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub. Plenar iclasda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi, "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Torpaq Məcəlləsində dəyişiklik edilməsi, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Psixatriya yardımı haqqında", "İcbari sığortalar haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi, "Dövlət qulluğu haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda qəbul edilib.

Plenar iclasda son olaraq İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanunun 2 maddəsinə - 9-cu və 11-ci maddələrinə dəyişiklik edilməsi nəzərdə tutulub və bütövlükdə müharibə qazilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədini daşıyır.

Qısa müzakirələrdən sonra layihə səsə qoyulub və birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Latviya ilə əlaqələrin inkişafına böyük önəm verir

İyunun 8-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Latviya Respublikası Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığı təşviq edən qrupun rəhbəri Roman Naudinşin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Spiker qonaqları səmimi salamlayaraq Azərbaycanın Baltikyanı ölkələr, o cümlədən Latviya ilə əlaqələrin inkişafına böyük önəm verdiyini söyləyib. Qeyd edilib ki, Azərbaycanla Latviya dost və tərəfdaş ölkələrdir. İki ölkə arasında münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə söykənir. Hər iki ölkə müstəqillik əldə etdikdən sonra əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar və imzalanmış sənədlər əməkdaşlığımızın daha da inkişafı üçün yaxşı zəmin yaradıb.

Milli Məclisin sədri tərəflər arasında yüksək siyasi dialoqun iqtisadi sahədə də böyük nailiyyətlər əldə etmək üçün yaxşı imkan yaratdığını deyib.

Sahibə Qafarova Azərbaycan və Latviyanın qanunverici orqanları arasında əlaqələrdən danışaraq qeyd edib ki, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsi ümumi məqsədlərə xidmət edir. Deputatların qarşılıqlı səfərləri, beynəlxalq qurumlarda mütəmadi görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Sahibə Qafarova 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə torpaqlarını Ermənistanın işğalından azad etdiyini və ərazi bütövlüyünün bərpasına nail olduğunu söyləyib. Bildirilib ki, erməni vandalları tərəfindən Qarabağda mülki və mədəni obyektlər tamamilə dağıdılıb, məscidlər yerlə yeksən edilib: "Hazırda Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərimizdə quruculuq və bərpa işləri həyata keçirir. Lakin Ermənistan minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir, sərhəddə təxribatlar törədir. Bu məqsədlə terrorçu dəstələrdən istifadə edir. Biz bu məsələdə beynəlxalq birliyin dəstəyinə ümid edirik".

Səmimi qəbula görə minnətdarlığını bildirən Latviya Respublikası Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığı təşviq edən qrupun rəhbəri Roman Naudinşin ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığın dərinləşməsində maraqlı olduğunu söylədi. Qeyd olunub ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər parlamentlər səviyyəsində münasibətlərin inkişafına öz müsbət təsirini göstərir. Bu cür təmaslar informasiya mübadiləsi baxımından çox önəmlidir.

Görüşdə parlamentlərarası əməkdaşlığın, beynəlxalq qurumlar çərçivəsində əlaqələrin gələcək inkişaf istiqamətləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*

# Latviya Seyminin nümayəndə heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





Latviya Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun rəhbəri Roman Naudinşinin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 8-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə gül dəstələri qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb. Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzüb, xatirələrini ehtiramla anıblar.

Bakının ən hündür nöqtəsindən şəhərin mənzərəsini seyr edən qonaqlara paytaxtda aparılan abadlıq və quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycanın xarici işlər naziri Latviya Seyminin nümayəndə heyəti ilə görüşüb

İyunun 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Latviya Respublikası Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun rəhbəri Roman Naudinşin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov qonaqları səmimiyyətlə qarşılayıb və ölkələrimiz arasında mövcud olan tarixi əlaqələrə, qarşılıqlı dəstək və əməkdaşlığa əsaslanan münasibətləri məmnunluqla qeyd edib. İkitərəfli və çoxtərəfli müstəvilərdə uğurla həyata keçirilən əməkdaşlığın perspektivləri vurğulanıb.

Roman Naudinş bölgədəki cari vəziyyətlə tanış olmaq baxımından səfərin əhəmiyyətini qeyd edib. Bölgədə sülhün təmin olunması üçün əldə edilmiş razılıqlara riayət edilməsinin vacibliyini ifadə edib. Latviya Seyminin üzvü, həmçinin Azərbaycanın üzləşdiyi mina təhlükəsinin ciddiliyini vurğulayıb.

Nazir bölgədə mövcud olan cari vəziyyət, xüsusilə də Ermənistanın sərhəd bölgəsində gərginliyin artırılmasına xidmət edən addımları, sərhəd məntəqəsində diversiya-kəşfiyyat fəaliyyəti, o cümlədən ərazilərin minalanması cəhdləri, eləcə də üçtərəfli bəyanatların icrası, azad olunmuş ərazilərin bərpası prosesi ilə bağlı qarşı tərəfə məlumat verib. Görüşdə tərəflər iki ölkə arasında mövcud olan əməkdaşlıq münasibətlərinin inkişafı, habelə parlamentlər arasında, humanitar sahədə əlaqələrin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı maraq kəsb edən bir sıra digər məsələlər müzakirə edilib.

# Azərbaycan parlament heyəti Türkiyənin xarici işlər naziri ilə görüşüb

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi və işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyevin daxil olduğu nümayəndə heyəti iyunun 8-də Ankarada Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım başda olmaqla, qrup üzvləri də görüşdə iştirak ediblər. Görüşdə Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri yüksək dəyərləndirilib, Vətən müharibəsi nəticəsində parlaq Zəfərin əldə olunmasında Türkiyənin göstərdiyi siyasi-mənəvi dəstək məmnunluqla xatırlanıb, bölgədəki yeni siyasi vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun Türkiyəyə səfəri iyunun 11-də başa çatacaq.

# Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsində əlaqələr müzakirə olunub

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi nümayəndə heyəti iyunun 8-də Ankarada Türkiyənin milli təhsil naziri Ziya Selçukla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri də iştirak ediblər.

Azərbaycan nümayəndə heyətini salamlayan türkiyəli nazir təhsil sahəsindəki əməkdaşlıq əlaqələrini və perspektivləri yüksək dəyərləndirib.

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov səmimi görüşə və xoş sözlərə görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edib.

Sonra görüşdə iştirak edən deputatlar Azərbaycan və Türkiyənin təhsil sahəsindəki əlaqələri barədə fikirlərini bölüşüblər.

Qeyd edək ki, Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun Türkiyəyə səfəri çərçivəsində iyunun 9-da rəsmi görüşlər nəzərdə tutulub.

Azərbaycan nümayəndə heyətinin tərkibinə işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev və Səttar Möhbalıyev daxildir.

# Azərbaycan və Türkiyə parlamentləri arasındakı əlaqələr yüksək səviyyədədir

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi və işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyevin daxil olduğu nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin Kənd təsərrüfatı, meşə və kənd işləri komissiyasının sədri Yunus Kılıçla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi, eləcə də parlamentlərin müvafiq komissiyaları arasındakı əlaqələr yüksək dəyərləndirilib.

Komissiya sədri Yunus Kılıç bildirib ki, Türkiyə parlamentindəki komissiyalar tarixi ənənələrə uyğun olaraq fəaliyyət göstərir.

Qırx dörd günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi siyasi-mənəvi dəstəyi yüksək qiymətləndirən Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov qeyd edib ki, iki qardaş ölkənin qanunverici orqanları, eləcə də komissiyalar arasındakı münasibətlərin səmərəliliyin artırılması üçün əlaqələr daha da intensivləşdirilməlidir.

Çıxışlarda diqqətə çatdırılıb ki, rəşadətli Zəfərdən sonra Azərbaycan ilə Türkiyə arasında digər sahələrdə olduğu kimi, aqrar sektorda da əməkdaşlığın yeni mərhələsi başlayıb. Azərbaycanın işğaldan azad olunan ərazilərində bərpa və yenidənqurma işləri üçün Türkiyə bütün imkanları ilə qardaş köməyi göstərir.

Ölkəmizin aqrar siyasəti, bu sahədə qazanılan nailiyyətlər, Qarabağ Zəfəri əsasında yaranmış perspektivlərdən bəhs edən Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvü Eldar İbrahimov diqqətə çatdırıb ki, işğaldan azad olunan ərazilər bərəkətli, məhsuldar torpaqlardır. Odur ki, bundan sonra Azərbaycan kənd təsərrüfatı və heyvandarlıqda böyük inkişaf əldə edəcək.

Qrupun üzvü Eldar Quliyev vurğulayıb ki, Türkiyənin də dəstəyi ilə minalardan təmizlənən Azərbaycan əraziləri ən qısa zamanda istifadəyə cəlb olunacaqdır.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan və Türkiyə aqrar sahədə, kənd təsərrüfatı, meşəçilik, su hövzələrindən səmərəli istifadə məsələlərində də sıx əməkdaşlıq edəcəklər.

Təəssüflə qeyd olunub ki, təcavüzkar Ermənistan 30 illik işğal dövründə nəzarət altında saxladığı Azərbaycan ərazilərində əsl soyqırımı həyata keçirib. O cümlədən torpaq sahələri qanunsuz istismar olunub, meşələr məhv edilib, su mənbələri məqsədyönlü şəkildə çirkləndirilib.

# AŞ PA-nın yay sessiyasına hazırlıq iclası keçirilib

İyunun 8-də Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin AŞ PA-nın yay sessiyasına hazırlıq iclası keçirilib.



Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, iyunun 21-dən 24-dək keçiriləcək sessiyada qurumun bürosunun və daimi komitəsinin hesabatları dinləniləcək, Avropa İnsan Hüquqları məhkəməsinə hakimlər seçiləcək, Bolqarıstanda və Albaniyada keçirilmiş parlament seçkilərinin nəticələri, media azadlığı və ictimai etimad, COVID vəsiqələri və sertifikatlar, pandemiyanın yaratdığı sosial-iqtisadi böhranın aradan qaldırılması, Pandemiyanın uşaq hüquqlarına təsiri, Avropada diasporlarla bağlı siyasət və digər mövzular müzakirə olunacaq.

Sonra iclasda sessiyada müzakirəyə çıxarılacaq məsələlər ətrafında fikir mübadiləsi aparılıb, nümayəndə heyətinin üzvləri gündəlikdəki məsələlərlə bağlı qeyd və təkliflərini diqqətə çatdırıblar.

Hazırlıq iclasında Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinin üzvləri Rafael Hüseynov, Sevinc Fətəliyeva, Asim Mollazadə, Erkin Qədirli, Könül Nurullayeva, Nigar Arpadarai, Tural Gəncəliyev, Sabir Hacıyev və Kamal Cəfərov iştirak ediblər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Milli Məclisdə latviyalı parlamentarilərlə görüş olub

İyunun 8-də Milli Məclisdə Azərbaycan və Latviya parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının görüşü keçirilib.



Milli Məclisin Latviya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Kamran Bayramov çıxış edərək iki ölkə arasındakı əməkdaşlığın əhəmiyyətindən söz açıb. Azərbaycan və Latviya arasında tarixi köklərə malik münasibətlərin qorunub saxlanmasından, bu əlaqələrin müstəqillik illərində daha da inkişaf etdirilməsində ölkə liderlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən danışıb. Kamran Bayramov qarşılıqlı əməkdaşlığın inkişafında hökumətlərarası komissiyanın fəaliyyətinin əhəmiyyətinə toxunub, iki ölkənin qanunverici orqanları arasında əlaqələrin mövcud vəziyyətindən, gələcək perspektivlərindən bəhs edib.

Latviya Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun rəhbəri Roman Naudinş baba yurdu olan Azərbaycana səfərindən məmnunluğunu bildirib. Azərbaycan və Latviya əlaqələrinin tarixindən bəhs edən Roman Naudinş xalqlarımız arasında mövcud olan oxşarlıqlara diqqət çəkib. Latviyalı qonaq iki ölkə arasında humanitar, təhsil, peşə hazırlığı kimi sahələrdə əməkdaşlıq potensialına diqqət çəkib.

Seymin Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun sədr müavini Armands Krauze və qrupun digər üzvü Aleksandr Kirşteins də çıxışlarında ikitərəfli əlaqələrin genişləndirilməsi istiqamətlərini nəzərdən keçiriblər, meşəsalma və yaşıllaşdırma, tikinti və ağac emalı kimi sahələrdə Latviyanın təcrübəsindən bəhs ediblər.

Görüşdə Milli Məclisin deputatı Nizami Səfərov latviyalı qonaqlara müharibə başa çatdıqdan sonra Ermənistanın minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina etməsi və Azərbaycan ərazisində həbs olunmuş erməni təxribatçılarını "hərbi əsirlər" kimi qələmə verməsi məsələsini beynəlxalq hüquq nöqteyi-nəzərindən ətraflı şərh edib. O, Ermənistanın bu kimi pozucu fəaliyyətlərinin beynəlxalq hüquqa, BMT sənədlərinə və bir dövlət kimi üzərinə götürdüyü öhdəliklərə zidd olduğunu tutarlı dəlillərlə latviyalı parlamentarilərin diqqətinə çatdırıb.

Deputat Fatma Yıldırım da öz növbəsində Azərbaycanın azad edilmiş ərazilərində erməni işğalının acı mənzərəsi, həyata keçirilən tikinti-bərpa işləri, bu sahədə əməkdaşlıq perspektivləri barədə bəhs edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

# Ankarada Azərbaycan və Türkiyənin parlament dostluq qrupları arasında görüş keçirilib

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi və işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyevin daxil olduğu nümayəndə heyəti ilə Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və Türkiyənin parlament dostluq qrupları arasındakı əlaqələr yüksək dəyərləndirilib, gələcək birgə fəaliyyətə dair səmərəli fikir mübadiləsi aparılıb.

Qırx dörd günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər münasibətilə yenidən təbriklərini çatdıran, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Qələbədən sonrakı proseslər, erməni lobbisinin təxribatları və buna qarşı tədbirlər barədə fikirlərini bölüşüb. Müharibə ilə əlaqədar Türkiyə Böyük Millət Məclisində təmsil olunan dörd siyasi partiyanın Azərbaycana göstərdiyi birgə dəstək bəyanatını xatırladan Şamil Ayrım diqqətə çatdırıb ki, Azərbaycanın dövlət müstəqilliyini özününkü kimi dəyərləndirən Türkiyə bütün məsələlərdə, eləcə də işğal altındakı torpaqlarımızın azadlığına göstərdiyi qardaşlıq dəstəyini bütün sahələrdə sonadək davam etdirəcək.

Yüksək qonaqpərvərliyə görə təşəkkürlərini çatdıran Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov əminliklə bildirib ki, Azərbaycan və Türkiyə parlamentlərindəki dostluq qrupları bundan sonra da fəal şəkildə çalışacaq. Qırx dörd günlük Vətən müharibəsi dövründə Türkiyənin göstərdiyi siyasi-mənəvi dəstəyi qardaşlıq münasibəti kimi dəyərləndirən Əhliman Əmiraslanov vurğulayıb ki, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntopun Gəncəyə səfəri düşməndə böyük təlaş və vahimə yaratmışdı. Müharibənin sona çatmasını bildirən üçtərəfli bəyanatda Zəngəzur dəhlizinin yaradılması ilə bağlı bəndin icrası prosesinə toxunan Əhliman Əmiraslanov əminliklə vurğulayıb ki, nəqliyyat və kommunikasiyaların açılması regionda bütün sülhsevər tərəflərin maraqlarına uyğundur.

"Bir millət, iki dövlət" ifadəsini xatırladan TBMM-in deputatı Aylin Cəsur Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl ilə Ümummilli Lider Heydər Əliyevin qardaşlıq əlaqələrindən bəhs edərək bildirib ki, böyük liderlərin ideyaları bu gün gerçəkliyə çevrilib.

Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Səttar Möhbalıyev, eləcə də türkiyəli deputatlar iki qardaş ölkənin tarixi münasibətləri, dərin köklərə əsaslanan ənənələr, birgə dəyərlər barədə fikirlərini bölüşüb, gələcək fəaliyyətin səmərəli nəticələri üçün təkliflərlə çıxış ediblər.

Çıxışlarda Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimizin birgə inkişafında mühüm rol oynadığını qeyd ediblər. Dövlət başçılarının siyasi iradələri və qətiyyətli qərarları təkcə Azərbaycan və Türkiyənin deyil, böyük bir coğrafiyada inkişafa və tərəqqiyə zəmin yaradıb.

Diqqətə çatdırılıb ki, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, Türkiyə dövlətinin və xalqının siyasi-mənəvi dəstəyi tarixi Zəfərdə böyük əhəmiyyətə malik olub.

Görüşdə Azərbaycan və Türkiyənin ümumi maraq doğuran məsələlərdə birgə fəaliyyətlərə dair səmərəli fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, Zəngəzur dəhlizinin açılması istiqamətində davamlı səylər regional inkişaf baxımından böyük önəm daşıyır.

# BƏT-lə əməkdaşlıqda Layiqli Əmək üzrə yeni Ölkə Proqramı hazırlanır

Hazırda Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə əməkdaşlıqda Layiqli Əmək üzrə yeni Ölkə Proqramının hazırlanması işləri aparılır. Yeni proqramın prioritetləri "2021-2025-ci illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi" ilə də tam uyğunluq təşkil edəcək.

Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev BƏT-in Baş direktoru Qay Rayderlə bugünkü onlayn görüşündə bildirib.

Nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan sosial irəliləyişləri, əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatları diqqətə çatdırıb və həmin sahələrdə BƏT-lə əməkdaşlığın daim genişlənməkdə olduğunu vurğulayıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev ötən dövrdə ölkəmizin BƏT-in 57 Konvensiyasına qoşulduğunu və Azərbaycan ilə BƏT arasında "2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"un uğurla icra olunduğunu bildirib. Həmin proqram üzrə əməkdaşlıq müstəvisində əmək qanunvericiliyinin təkmilləşdirilməsi, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun yeni Məşğulluq Strategiyası layihəsinin hazırlanması, əmək müfəttişliyi və məşğulluq xidmətlərinin potensialının gücləndirilməsi, özünüməşğulluq proqramının icrası, gənclərin layiqli məşğulluq imkanlarının genişləndirilməsi və s. istiqamətlərdə birgə işlər aparılıb.

Beynəlxalq Əmək Konfransının 106-cı sessiyası çərçivəsində Azərbaycan Hökuməti 2017-2020-ci illər üçün BƏT-in İdarə Heyətinə üzv seçilib və üzvlük pandemiya səbəbindən 1 il uzadılıb.

Nazir Azərbaycanda həyata keçirilən DOST layihəsi, ilk proaktiv xidmət olan avtomatlaşdırılmış pensiya təyinatı, əmək, sosial müdafiə və məşğulluq sahələrində e-texnologiyaların geniş tətbiqi məqsədilə görülən işlər barədə məlumat verib və bu sahələrdə əldə olunan uğurlu nəticələrin digər ölkələrin müvafiq qurumlarının da yüksək marağına səbəb olduğunu diqqətə çatdırıb.

S.Babayev ötən ilin sentyabrında Ermənistanın törətdiyi hərbi təxribata cavab olaraq Azərbaycan Ordusunun əks hücum əməliyyatları həyata keçirməklə, ölkəmizin ərazilərini Ermənistanın işğalından azad etdiyini, azad edilmiş ərazilərdə tam yenidənqurma və bərpa işlərinin aparılmaqda olduğunu bildirib. Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə məskunlaşma, layiqli yaşayış, aktiv məşğulluq, zəruri kadr potensialı və iqtisadi fəallıq təmin ediləcək. İnnovasiyalara və texnoloji inkişafa üstünlük verilərək həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirəcək.

Q.Rayder BƏT-lə Azərbaycan arasında əməkdaşlıq əlaqələrindən bəhs edərək postmünaqişə dövründə də əhalinin layiqli məşğulluq imkanlarına çıxış əldə edə bilməsinin, yenidənqurma və stabillik əldə olunmasının inkişaf üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb. O, BƏT-in beynəlxalq səviyyədə apardığı işlərlə də uyğunluq təşkil edən bu prioritetlərin Layiqli Əmək üzrə yeni Ölkə Proqramında da əksini tapacağına əminliyini ifadə edib.



# Tarixi dəyişən qayıdış

## 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələn Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını cəsarətlə, qətiyyətlə yerinə yetirdi

*Əvvəli 1-ci səh.*

Heydər Əliyev Gəncədə 709 saylı hərbi hissənin döyüş meydanına çevrilmiş ərazisinə baş çəkdi, şəhər sakinləri, hərbi qulluqçuları ilə görüşüb söhbət etdi, ağsaqqal sözünü dedi. Ulu Öndər həyatını təhlükəyə atsa da, taleyüklü missiyasını şərəflə yerinə yetirdi. Sonradan bu səfər zamanı onun fiziki məhvi barədə cəhdlərin olması faktları aşkarlandı. Hərçənd ki, riskli səfərə yola düşərkən ona qarşı qəsdlərin olacağını Heydər Əliyev yaxşı bilirdi. Lakin xalqın güclü məhəbbətinin qarşısında cinayətkarların aciz olması bəlli idi. Tarix göstərir ki, Heydər Əliyevin Gəncəyə səfəri ölkədə yaranmış vətəndaş qarşıdurmasını aradan qaldırdı.

Qeyd etdiyimiz kimi, Heydər Əliyevin Bakıya gəlişi, o cümlədən Gəncəyə səfər etməsi ilə Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu istəməyən dairələrin planları alt-üst olmağa başladı. Ona görə məhz həmin vaxtlarda birdən-birə respublikamız həm xaricdən, həm də daxildən zərbələrə məruz qaldı. Azərbaycanı istəməyən dairələr yeni planlarını işə saldılar. Ön cəbhədəki bəzi ordu hissələrinin siyasi oyunlara qatılmasından, ölkədəki qeyri-sabit siyasi vəziyyətdən istifadə edən erməni hərbi birləşmələri yeni hücum əməliyyatına başladılar. Ölkədə vəziyyət həddindən artıq gərgin idi. Separatçı Ə.Hümbətov tabeçiliyində olan silahlı qüvvələrdən istifadə edib cənub rayonlarında "respublika" yaratmağa çalışdı. Şimal rayonlarında isə separatçı "Sadval" təşkilatı Azərbaycan dövlətçiliyi əleyhinə fəaliyyətlə məşğul idi. Ölkədə siyasi hakimiyyətin fəaliyyəti tamamilə iflic olduğu belə bir vəziyyətdə xalqın yeganə ümidi yalnız Heydər Əliyevə idi.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi parlamentdə təmsil olunan siyasi dairələrin məhz Ulu Öndərin xilaskarlıq missiyasına olan ümid və inamlarının göstəricisi idi. Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlişi və 6 gün sonra Ali Sovetin sədri seçilməsi ilə Azərbaycanın müasir tarixində yeni mərhələnin başlanğıcı qoyuldu. İyunun 15-i müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu qurtuluşla dövlətçiliyimizin gələcək mövcudluğunun təməl daşı qoyuldu. Heydər Əliyev dühasının xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtuldu. Heydər Əliyev şəxsiyyətinin miqyası, nəhəngliyi və əzəməti tarixin onun öhdəsinə buraxdığı taleyüklü məsələnin həllini təmin etmək qüdrətini nümayiş etdirdi və Azərbaycanın tarixində xilaskar lider adını daşımaq şərəfi məhz ona qismət oldu.

### Milli Qurtuluşdan tarixi Zəfərə

Heydər Əliyev 1993-cü il iyunun 24-də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Avqust ayında referendum yolu ilə Əbülfəz Elçibəyə etimadsızlıq göstərildi. Bundan sonra Azərbaycan xalqı onu ağır bəlalardan qurtaran xilaskarını - Heydər Əliyevi 1993-cü il oktyabrın 3-də görünməmiş siyasi fəallıq və ruh yüksəkliyi ilə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçdi. Beləliklə, ölkədəki siyasi hakimiyyət böhranı tam aradan qaldırıldı.

Bu gün siyasi baxşılarından asılı olmayaraq mütləq əksəriyyət etiraf edir ki, respublikamızın müstəqilliyinin ilk illərində üzləşdiyi problemlərin həlli məhz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu fenomen şəxsiyyətin 1993-cü ildə yenə də xalqın çağırışına cavab verərək Azərbaycanın idarəçilik sükanı arxasına keçməsi, çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə mətinliklə sinə gərməsi xalqımızı vətəndaş müharibəsindən, ən əsası müstəqilliyimizin itirilməsi təhlükəsindən qurtardı. Nəticə etibarilə bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratdı. Heydər Əliyev Azərbaycanın taleyinin sınağa çəkildiyi zamanlarda xilaskarlıqdan başlamış, müstəqil dövlətimizin yaradılması kimi şərəfli missiyanı uğurla, uzaqgörənliklə, müdrikliklə yerinə yetirdi.

*Müstəqil ölkəmizin memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim işıq salacaq. Bu gün Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi, bu siyasi kursun daha da zənginləşdirilməsi nəticəsində Azərbaycan yüksəlir, dünya dövlətləri arasında öz yerini daha da möhkəmləndirir. Ötən ilin 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə də bu siyasətin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Torpaqlarımızın işğaldan azad olunması Qurtuluş günündən sonra tariximizə və dövlətçiliyimizə qızıl hərflərlə yazılan növbəti böyük Zəfər oldu.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

◆ Qarabağ söhbətləri





# İlham Əliyev Qarabağı öz sahiblərinə qaytardı

## *Flora QASIMOVA:* "O gün Şuşada Şirin Mirzəyevin ruhu da mənimlə idi..."

"Düz 32 ildən sonra Şuşaya ayaq basanda, onun büllur bulaqlarından su içəndə, Cıdır düzündən havalanıb Xankəndiyə, Kərkicahana, İrəvana, bütün dünyaya Qarabağın əsl sahiblərinin qayıdışını hayqıran "Bayatı-Şiraz"ı dinləyəndə elə bildim həmin an dünyanın ən xoşbəxt insanı mənəm...
Çünki o gün Şirin Mirzəyevin ruhu da mənimlə idi..."

Ərköyün Xəzrinin küçələrdə al-əlvan xəzan yarpaqlarını oradan-oraya sovurduğu, tutqun bir payız günündə ürəyində qövr edən nisgil qarışıq sevincin ahənginə qoşulub gətirdiyi müjdəni çatdırmaq üçün bir qadın tələsirdi Şəhidlər xiyabanına...

Sükuta qərq olmuş məzarlığa, uzaqdan insan siluetlərinə bənzəyən başdaşlarına yaxınlaşanda və nəhayət gözləri həmin başdaşlarının birinin üzərindəki şəkildən boylanan intizarlı baxışlarla toqquşanda isə qeyri-ixtiyari səntirləmiş, irəli addım ata bilməmişdi...

Bu məzarın qarşısındaca bir anlıq heykələ dönmüş, dili söz tutmamışdı...

Gətirdiyi qələbə xəbərini isə gözlərindən axaraq kip bağlamış dodaqlarından süzülüb sinəsini yandıran qüssəli damlalar anlatmışdı...

Bu bir anın daş sükutu zamanla üzəri qaysaq bağlayan yaraları qanatmış, ağrılı günlər könlündə qövr etmiş və ürəyində boğa bilmədiyi bir fəryad baş qaldırmışdı...

"Kaş, indi sən də sağ olaydın, Şirin..."

Əfsus...

Zaman, 2020-ci ilin 10 noyabrıydı...

O həsrətli məzar neçə illər idi ruhu qələbə xəbəri gözləyən əfsanəvi Milli Qəhrəmanımız, şəhid polkovnik-leytenant Şirin Mirzəyevin, ona Qarabağımızın azadlıq xəbərini yetirməyə gələn qadın isə ömür-gün yoldaşı Flora Qasımova idi...

### Bəxtəvər günlər, aylar, illər

Təbiətin yaz coşqusu yaşadığı günlərdən biri, Şuşada Cıdır düzündə güllərin-çiçəklərin gözəllikdə kəpənəklərlə rəqabət apardığı, quşların bir-biri ilə tərənə yarışına çıxdığı may ayı idi. Uzaqda, baş-başa çatmış dağların zirvəsində günəş işığından bərq vuran bəm-bəyaz qarın parıltısı Şuşanı sehrli bir haləyə bürümüş, sıldırımlardan özünü Qarabağın azad səmalarına atan məğrur qartallar zümrüd donlu Topxananın başına dolanaraq qələbə qıyı çəkmişdilər...

Onun da xəyalları Cıdır düzündən ürəkləri riqqətə gətirərək pərdə-pərdə ucalan muğam zəngulələrinə qoşularaq ötənlərə, keçənlərə, acılı-şirinli günlərə doğru sürətlə qanad açmış, yenə o bəxtəvər günlərinə, aylarına, illərinə qayıtmışdı...

Budur, yenə anası halva çalıb, balaca Floranı da götürərərək Şuşaya, Cıdır düzündə yerləşən babasının, Şuşa qalasındakı "Təzə Pir" məscidinin baş ruhanisi Hacı Axund Molla Şükürün məzarı başına aparıb.



O da balaca əllərini açaraq babasının ruhuna dualar oxuyur, anasına qoşularaq məzarın ətrafını təmizləyir... Sonra anası ona yaxınlıqdakı malikanəni, bağı göstərərək deyir, bax vaxtilə bura babanın evi olub, elə mən də burada doğulub boya başa çatmışam...

Sonra isə...

Milli Qəhrəmanımız, şəhid polkovnik-leytenant Şirin Mirzəyevin həyat yoldaşı, Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli Flora Qasımovadır "Qarabağ söhbətləri"ndə...

Əvvəlcə söhbətimiz başdan-başa Vətən həsrətinə, ağrı-acısına köklləndi, qüssəli anlara baş vurdu, lakin bu da bir xoşbəxtlikdir ki, nəhayət Qarabağın azadlığına, qəhrəman Şirin Mirzəyev və onun timsalında Vətən torpaqlarımızın uğrunda canından keçən şəhidlərimizin qisasının alınması kimi xoşbəxtlik zirvəsinə ucaldı...

Amma hələ 2020-ci ilin xoş müjdəli günlərinə qədər çox-çox məşəqqətli anlar yaşanmışdı...

### 1988-ci il hadisələrinə qədər

*Şuşa qalasının cənub tərəfindən Cıdır düzünə açılan böyük dəmir darvazanın ardında olan qollu-budaqlı uca qoz ağacından o tərəfə geniş bir bağ vardı. Bu bağ Flora xanımın ulu babası, əslən Laçının Ağanus kəndindən olan Hacı Axund Molla Şükürün idi. Dünyanın ən gözəl gül-çiçəyinin, meyvə ağaclarının olduğu yer üzünün bu cənnət bağını Molla Şükür öz əli ilə əkib-becərmişdi. Bağın ortasında isə altı-yeddi otaqdan ibarət kürsülü bir ev, evin yanında mətbəx, mətbəxin yanında qədim təndirxana var idi.*

*Daha sonra bu malikanədə Hacı Axund Molla Şükürün oğlu Mirzə Məhəmməd (Flora xanımın babası) yaşayırmış. Mirzə Məhəmməd Müsavat hökuməti vaxtında əvvəl Qubadlıda qəza pristavı, son dövrlərdə isə Xosrov bəy Sultanovun əmri ilə Şuşa qəzasının rəisi işləyirmiş.*

*Cümhuriyyət süquta uğrayandan sonra repressiyaya məruz qalaraq həbs olunmuşdu. Sonra Şuşaya qayıdıb gələndə isə yenidən təqiblərlə üzləşdiyi üçün ailəsini də götürüb Ağdama köçmüşdü...*

- Atam Qasım əslən Şuşanın Malıbəyli kəndindən olsa da, Xankəndidə yaşamış, müharibədən qayıdandan sonra Ağdama gedib-gələndə anamı orada görmüşdü və onlar ailə qurmuşdular. Atam Daxili İşlər Nazirliyində yanğından mühafizə idarəsində rəis müavini, anam isə ibtidai sinif müəllimi idi. O, Xankəndinin Kərkicahan kəndində dərs dediyi üçün biz məktəb zamanı həmin kəndə köçüb kirayədə yaşayardıq.

Sonradan tikilən evlərin sayəsində Kərkicahan böyümüşdü və Xankəndiyə birləşərək onun bir məhəlləsinə çevrilmişdi. Kərkicahan iki - yuxarı və aşağı hissədən ibarət idi. Əhalisinin əksəriyyəti azərbaycanlı idi. 1988-ci il hadisələrinə qədər azərbaycanlıların sayı 2000-ə yaxın idi. Kənddə 8 illik məktəb fəaliyyət göstərirdi və oranı bitirənlər Xankəndiyə gəlib Nizami adına 4 nömrəli məktəbdə oxuyurdular.

### Yarıda qırılan ömür

*Flora xanım danışır ki, 1988-ci il hadisələri başlayanda kərkicahanlılar igidliklə, mətanətlə dayanaraq doğma yurdlarını tərk etməmiş, 1991-ci il dekabrın 28-nə qədər ermənilərlə döyüşmüşdülər, amma təəssüf ki, o zaman işğal olunmuşdu.*

- Qarabağ hadisələri başlayan zaman biz Moskvada idik, Şirin Lenin adına Ali Hərbi Akademiyada oxuyurdu. Hər ikimizin qohumları Xankəndidə, Şuşada idi (Şirin əslən Şuşanın Mirzələr kəndindən idi), mənim qohumlarımın əksəriyyəti isə Ağdamda yaşayırdı. Ermənilər günahsız azərbaycanlıların qanını tökürdülər. Təsadüfən, qəbiristanlıqda silah gizlədən ermənilərin əməllərinə şahid olduqlarına görə Şirinin qardaşı oğlanlarını möhkəm döymüşdülər.

Şirin Daxili Qoşunlarda çalışanda Qarabağ bölgəsində bir batalyonları var idi. Ezamiyyə vərəqi yazdırıb gedirdi hadisələri öyrənməyə. Deyirdi ki, mən hərbi formadayam, həm də erməniсə təmiz bilirəm, buna görə də onlar tanıya bilmir mən kiməm. Hətta ən çətin vaxtda azərbaycanlıların evlərini yandıranda, talan edəndə şahid olmuşdu. Gedib qəbiristanlığa baxmışdı, görmüşdü ki, qəbiristanlıqdakı bütün başdaşlarını sındırıblar, o cümlədən də atasının başdaşını. O, atasının sınan başdaşını götürüb Kərkicahanda yaşayan bacısıgilə aparmışdı.

Şirin Böyükşorda yerləşən 6500 saylı hərbi hissədə işləyirdi. 1991-ci il sentyabrın axırları, oktyabrın əvvəllərində isə Müdafiə Nazirliyinin əmri ilə özünümüdafiə batalyonu yaratdı və onun komandiri oldu. O zaman Ermənistanla sərhəd cəbhə bölgələrində özünümüdafiə batalyonları yaradılırdı. Şirin qısa müddətdə silah tapıb ala bildi, əsgərləri geyimlərlə təmin etdi...

Şirin Vətənini çox sevirdi. O, gecə-gündüz torpaqlarımızın müdafiəsində dayanır, əlindən gələn hər şeyi etməyə çalışırdı... Amma heyif ki, ömrü yarıda qırıldı...

### Batmanla gələn dərd

*Çox çətin illər idi, elə bil hər şey üst-üstə gəlmişdi. Dağ kimi həyat yoldaşı, polkovnik-leytenant Şirin Mirzəyevi itirmişdi, qohumlarının hamısı köçkün düşmüşdür. Onları yerləşdirmək, işlə təmin etmək, övladlarını böyütmək hamısı Flora xanımın öhdəsinə düşmüşdü. Bu illər ərzində çox yaxınları vaxtsız dünyalarını dəyişmişdi. Və hər dəfəsində acı təəssüf hissi ilə düşünmüşdü ki, bəlkə də onlar öz yurd-yuvalarında yaşasaydılar, Xankəndinin təmiz havasından udub, Xan qızı bulağının suyundan içsəydilər, ömürləri daha uzun olardı, bəlkə də...*

- Anamla-atam Bakıda mənimlə qalırdılar. Onların necə əzab çəkdiklərini görürdüm. Nə etsək də, necə təsəlli versək də, heç ovunmur, elə o yerlərə qayıtmaq istəyirdilər. Hər ikisi çox həsrətlə, əziyyətlə canlarını tapşırdılar. Elə Şirinin anası 80 yaşlı Nazpəri xanım da Bakıda məskunlaşdıqları 5 mərtəbəli yataqxanada əzab çəkirdi. Yaşlı adam idi, nə bir yerə gedə bilirdi, nə pillələnləri düşüb-qalxa bilirdi... Hey deyirdi ki, məni oğlumun məzarına aparın...

Həyatımda gördüyüm ən acı mənzərələrdən biri də Şirinin məzarına gedəndə yaşlı ananın əyilərək qəbirdən bir ovuc torpaq götürərək nalələrlə ağzına qoyması idi... Nazpəri xanım da dərddən çox əzabla can verdi...





Ümumiyyətlə, bu illərdə köçkünlük həyatı yaşayan bütün insanlar bu mənəvi əzabı çəkirdilər. Həmişə danışırdılar ki, öz doğma od-ocağımızdan ayrı düşmüşük, gedib əzizlərimizin qəbrini ziyarət edə bilmirik... Bir az vəziyyətləri pis olan kimi deyirdilər ki, Allah möhlət versin, gedib öz evimdə ölüm, doğulduğum torpağa qarışım...

### "Təki Azərbaycan Ordusu yaradılsın, mən onun tərkibində sıravi əsgər kimi qulluq edərəm"

*44 günlük müharibə ərzində heç bir dəqiqə də televiziya qarşısından kənara çəkilməyən Flora xanım Ali Baş Komandanın məlumatlarını hər dəfə sevinc və göz yaşları ilə izləyir, rayonlarımızın bir-bir alındığını eşidəndə qururdan ürəyi dağa dönürdü...*

- Ali Baş Komandan Şuşanın azad olma xəbərini xalqımıza müjdələyəndə sevincimdən hönkür-hönkür ağladım, əl açıb Tanrıya şükürlər etdim...

Ürəyimdən isə qüssə qarışıq belə bir hiss də keçdi ki, kaş Şirin Mirzəyev də sağ olaydı, o da bu döyüşlərdə iştirak edəydi, bu qələbə günlərini görəydi...

Şirinin ən böyük arzularından biri güclü Azərbaycan Ordusunun yaradılması idi. Müsahibələrinin birində də demişdi ki, "təki Azərbaycan Ordusu yaradılsın, mən onun tərkibində sıravi əsgər kimi qulluq edərəm..."

Bilirəm ki, Şirin Mirzəyev xalqımızın, döyüş yoldaşlarının, əsgərlərinin yaddaşında, xatirəsində həmişə yaşayır və əminəm ki, bu gün onun da ruhu şaddır.

### İlham Əliyev Qarabağ nisgilimizə son qoydu

- Mən heç vaxt ümidimi itirmirdim, bilirdim ki, mütləq o torpaqlara qayıdacağıq. Çünki cənab Prezident İlham Əliyev həm yerli, həm də istənilən beynəlxalq toplantıların ali tribunalarından Azərbaycanın haqq səsini dünyaya çatdırır, qətiyyətlə bəyan edirdi ki, o, heç zaman işğalçı Ermənistanın qanunsuz əməlləri ilə barışmayacaq. Ali Baş Komandan Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunmasını, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının təmin olunmasını tələb edirdi və deyirdi ki, necə ki güclü Azərbaycan dövləti, qüdrətli Azərbaycan Ordusu var, heç zaman torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Bu illər ərzində dövlət başçımız Azərbaycanı iqtisadi cəhətdən xeyli inkişaf etdirdi, vətəndaşların sosial vəziyyətini yüksək səviyyəyə çatdırdı, məharətli xarici siyasət yeridərək ölkəmizi dünya ölkələrinin maraq mərkəzinə çevirdi və elə bu da bir növ Azərbaycanın təhlükəsizlik kəmərinə çevrildi. Digər tərəfdən güclü və qüdrətli Azərbaycan Ordusu yaratdı. Bu gün Silahlı Qüvvələrimiz dünyanın ən güclüləri arasındadır. Elə 44 günlük müharibədə də Azərbaycan Ordusu yüksək peşəkarlığını nümayiş etdirdi və adını dünya hərb tarixinə silinməyəcək şəkildə qızıl hərflərlə həkk etdi.

Şuşaya dəfələrlə getmişəm, Daşaltını görmüşəm, o aşılmaz qayalıqlara bələdəm, amma 2021-ci il may ayının 12-də Şuşaya səfər edəndə bir daha o sıldırımlara heyrətlə baxdım. Bu qayalardan dırmaşaraq yalın əllə düşməni qarşısında diz çökdürən və Şuşanı azadlığa qovuşduran o igidlərlə bir daha fəxr etdim, qürurlandım...

Ali Baş Komandanın qətiyyəti və ordumuzun şücaəti sayəsində torpaqlarımız işğalçılardan təmizləndi və Qarabağ həsrətimiz sona yetdi. İndi bütün köçkünlər Qarabağa böyük qayıdış gününü səbirsizliklə gözləyirlər...

### 32 ildən sonra bitən həsrət

*1989-cu ilin bir yay günündə, məktəblər tətilə çıxanda Flora xanım Bakıdan Ağdama anasıgilə gəlir və onlar birlikdə yenə də əvvəlki vaxtlarda olduğu kimi, Şuşaya, Cıdır düzündə ulu babasının qəbrini ziyarət etməyə yollanır, anasının çalıb yuxaya bükdüyü halvadan ətrafdakı insanlara paylayırlar. Sonra isə xalı kimi yumşaq yaşıl otların üstündə oturub Şuşanın füsunkar gözəlliyini seyrə dalırlar...*

*Bir daha bu yerlərə ayaq basa bilməyəcəklərindən xəbərsiz...*

- Həmin günün axşamı hay düşdü ki, yolda ermənilər Kərkicahandan Şuşaya gəlmək istəyən iki azərbaycanlını öldürüblər. Onların cənazəsini Şuşaya gətirən maşın raykomun binasının qarşısında saxladı və əhali də ora axışmağa başladı. Biz də anamla ora getdik. Camaat həyəcanlı və çox əsəbi idi ki, bu günahsız mülki şəxsləri niyə qətlə yetiriblər?! Xeyli orada olduq, gecə isə yenidən hay düşdü ki, ermənilər Daşaltıdan hücuma keçiblər, gah dedilər ki, Laçın istiqamətindən gəlirlər. Vəziyyət çox gərgin idi, yollar da bağlanmışdı. Biz də evə qayıda bilmirdik. Nəhayət, səhəri gün Cıdır düzünə bir vertolyot gəldi və biz də onunla Ağdama yola düşə bildik. Bu mənim Şuşaya sonuncu gedişim olmuşdu...

Amma bu da taleyin xoş qisməti oldu ki, düz 32 ildən sonra mən yenidən Şuşaya getdim, fəxarətli "Xarıbülbül" festivalını izlədim...

Şuşaya gedərkən yolboyu görürdük ki, sanki təbiət bizi qarşılamaq üçün bəzənib-düzənib. Başdan-başa al-qırmızı lalələrə bürünmüş çəmənlərə baxmaqdan doymazdın...

Biz həm də düşmənin viranə qoyduğu evlərimizi, yurdlarımızı görür, bu faşist xislətlilərin vəhşi əməllərindən dəhşətə gəlirdik. Ermənilər də digər xalqlar kimi bizim torpaqlarda əmin-amanlıq içində yaşayırdılar, amma nankorluq etdilər. Onlar vətəndaşı olduqları ölkəyə xəyanət etdilər. Necə ki, 1915-ci ildə Türkiyəyə xəyanət etmişdilər, bu naqis əməllərini Azərbaycana qarşı nümayiş etdirdilər. Düşünürsən ki, İlahi, bu cür qisasçılıq, nifrət hissi haradandır onlarda?! Bəs dünyaya bar-bar bağırırlar ki, bu yerlər bizimdir? İnsan da öz torpağını viranə qoyarmı?!

Amma o da var ki, ermənilər dildə desələr də, ürəklərində bilirdilər ki, bu torpağın yiyəsi var və bir gün mütləq qayıdacaqlar...

Bax elə ona görə də evlərimizi dağıtmışdılar, ağaclarımızı kəsmişdilər, torpağımızı yandırmışdılar...

Amma tezliklə qüdrətli Azərbaycan dövləti o əraziləri yenidən cənnətə çevirəcək, Qarabağa yenə həyat qayıdacaq...

Hələ 1988-ci ildə, hadisələr yeni başlayanda bir erməni ziyalısı demişdi ki, bizim millətin düşüncəsi 1906-cı il səviyyəsində qalıb. Tarix sübut etdi ki, hələ də onların düşüncə səviyyəsi elə yenə də o illərdəki kimi qalıb və 100 ildən çox zaman keçsə də, heç bir irəliləyiş yoxdur...

### Bu torpağın sahibləri qayıdıb...

- Cıdır düzündə "Xarıbülbül" festivalının açılışını edən Kənan balamız "Bayatı-Şiraz"ı oxuyanda elə bildim ki, dünyanın ən xoşbəxt adamı mənəm... O gün "Bayatı-Şiraz" Şuşadan bütün dünyaya hayqırdı ki, bu torpağın sahibləri qayıdıb. Azərbaycanda bir ailə kimi yaşayan müxtəlif xalqların rəngarəng çıxışları isə min illərdir Odlar Yurdunda yaşayan qardaş xalqların öz mədəniyyətlərini olduğu kimi qoruyub saxladıqlarını və daha da inkişaf etdirdiklərini bir daha göz önünə sərdi, xalqımızın zəngin multikultural ənənəsini dünyaya nümayiş etdirdi...

Neçə illər idi ki, Cıdır düzündə olan üç məzarın, ulu babamın və daha iki yaxınımızın qəbrinin, eyni zamanda onun mülkünün taleyi ilə bağlı çox narahat idim. Amma onların mənə göstərilən fotolarına baxanda gördüm ki, başdaşları sınıq olsa da, məzarlar durur. O məzarları bərpa etdirmək niyyətindəyəm. Babamın mülkünü isə həm ulu babamın, həm də torpaqlarımızın azadlığı uğrunda canını fəda edən şəhidlərimizin əziz xatirəsinə ibadət yeri kimi bərpa etdirmək istəyirəm...

*Şuşada tanış küçələrə, məhəllələrə, evlərə, bağlara, dağlara illərin həsrətlisi kimi baxır, onları ən incə cizgisinə qədər könlünə, yaddaşına, ruhuna həkk edirdi...*

*Şuşadan doymaq bilmir, Cıdır düzündən Xankəndiyə uşaqlıq illərinin, gəncliyinin xatirələri həkk olunan doğma evlərinə sarı boylanır, istər-istəməz ötən ağrı-acılı anlara görə qəlbini qüssə sıxırdı, amma tezcə də bu kədərli hissləri özündən uzaqlaşdıraraq, dodaqaltı qürurla pıçıldayırdı:*

*"Tanrı taleyimə Vətənimin azadlığını görmək kimi xoş qismət də yazıb və mən o gün Cıdır düzündən Xankəndiyə, Xocalıya, bütün Qarabağa, həm də Şirinin əvəzinə, onun gözləri ilə fəxarətlə baxdım..."*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Baş Prokurorluğunun kollegiya iclası keçirilib



İyunun 8-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanından irəli gələn vəzifələrin icrası və işin təşkilinə dair məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirildiyi, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqinə müxtəlif ölkələrdən investisiyaların cəlb olunduğu qeyd edilib, "yaşıl zona" elan edilmiş həmin ərazilərin yenidən qurulmasının ölkə iqtisadiyyatına mühüm təkan verəcəyi diqqətə çatdırılıb.

Baş prokuror Kamran Əliyev dövlətimiz tərəfindən işğaldan azad edilmiş ərazilərin yenidən həyata qaytarılması istiqamətində geniş abadlıq-quruculuq işlərinin aparıldığı bir vaxtda Ermənistanın beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərində məqsədli şəkildə və geniş miqyasda həm hərbi, həm də mülki şəxslərin həyatına və təhlükəsizliyinə ciddi təhdid yaradan minalar basdırması məsələsinin davamlı şəkildə beynəlxalq müstəvidə qaldırılmaqla nüfuzlu beynəlxalq təşkilatlar və dünya ictimaiyyətindən törədilmiş cinayətlərlə bağlı səlahiyyətləri çərçivəsində Ermənistan rəhbərliyinə qarşı tədbir görülməsinə dair müraciətlər ünvanlandığını qeyd edib.

Kollegiya iclasında ölkəmizdə pandemiyaya qarşı mübarizə sahəsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən tədbirlərin əhəmiyyəti vurğulanıb, son günlər ölkədə sağalanların sayının artması ilə yanaşı, vaksinasiyanın uğurla aparılması nəticəsində əhalimizin artıq bir hissəsinin peyvənd olunduğu bildirilib. Həmçinin COVID-19 infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilib.

Ötən kollegiya iclasından keçən müddətdə Rusiya Federasiyası Baş prokurorunun və Türkiyə Respublikası Ali Məhkəməsi Baş prokurorunun rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə işgüzar səfərlərinin, onların dövlət başçısı İlham Əliyev tərəfindən qəbul edilməsinin önəmindən, hər iki ölkənin müvafiq qurumları ilə qarşılıqlı əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyması diqqətə çatdırılıb.

Kollegiya iclasında, həmçinin işğaldan azad edilmiş ərazilərdə yaradılmış hərbi prokurorluqların fəaliyyətinin təşkilinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin qısa müddətdə görülməsi ilə bağlı tapşırıqlar verilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanı ilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 1999-cu il 24 dekabr tarixli, 232 nömrəli Fərmana edilmiş əlavə və dəyişikliklərlə prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin yaradılması ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələrə dair Baş prokurorun müavini Heydər Məmmədov, "İşin Təşkili Qaydaları"nın təkmilləşdirilməsi məsələləri ilə bağlı Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə dövri qiymətləndirmələrin aparılması qaydalarının hazırlanaraq icraya yönəldilməsi ilə əlaqədar Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov və cari kadr məsələləri ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildiriblər.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# ADA Universitetində YAP Gənclər Birliyinin fəal üzvləri ilə görüş

İyunun 8-də ADA Universitetində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin fəal üzvləri ilə görüş keçirilib.



YAP-dan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə ADA Universitetinin Tələbə qəbulu və qeydiyyatı şöbəsinin mütəxəssisi Elşad Göyüşov gəncləri ali təhsil ocağında yaradılan şəraitlə tanış edib.

Akt zalında davam edən görüşdə ADA Universitetinin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

E.Göyüşov bildirib ki, hazırda ADA Universitetində 2560 tələbə təhsil alır: "Müxtəlif ölkələrdən bu ali təhsil ocağında təhsil alan tələbələr burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfələr verirlər. Tələbələr bu təhsil ocağında müasir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın aparıcı universitetləri ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar".

ADA Universitetinin nümayəndəsi qeyd edib ki, təhsil ocağı fəaliyyətə başladığı gündən dərslər ingilis dilində tədris edilir.

Təhsil müəssisəsində ictimai və beynəlxalq münasibətlər, biznes, informasiya texnologiyaları və mühəndislik fakültələrinin fəaliyyət göstərdiyini, tələbələrin bakalavr pilləsi üzrə beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, hüquqşünaslıq, biznesin idarə edilməsi, iqtisadiyyat, kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları, magistr pilləsi üzrə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə olunması, MBA, təhsil menecmenti, ümumilikdə 19 ixtisas üzrə təhsil aldığını bildirən mütəxəssis yeni ixtisasların yaradılmasından, həmçinin bu tanışlığın gələcək üçün perspektivlərindən də bəhs edib.

ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə "Gənclər siyasəti və iştirakçılıq" mövzusunda danışaraq bildirib ki, təhsil hər bir dövlətin gələcəyidir. Gənclərimiz elmin sirlərinə dərindən yiyələnməli, savadlı, bilikli olmalı, öz bilik və bacarıqlarını ölkəmizin inkişafına, tərəqqisinə yönəltməlidirlər.

Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının sıralarında birləşdirdiyi gənclərə ictimai-siyasi fəallıqlarını artırmaları üçün geniş imkanlar açdığını bildirən F.İsmayılzadə YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun, eyni zamanda, hazırda görüşdə iştirak edən bir neçə gəncin məhz ADA Universitetinin məzunları olmasını vurğulayıb.

Gənclərin Azərbaycan həqiqətlərinin təbliğində fəal iştirakı məsələsinə diqqət çəkən F.İsmayılzadə deyib ki, onlar müasir dövrün imkanlarından maksimum istifadə etməlidirlər.

ADA Universitetinin məzunu, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov görüşün yüksək səviyyədə təşkilinə, onlara tanışlıq üçün yaradılan gözəl şəraitə görə bu ali təhsil ocağının rəhbərliyinə, bütün kollektivə öz təşəkkürünü bildirib.

Diskussiya şəklində davam edən tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb. YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun müxtəlif ölkələrdən olan tələbələrin təhsil aldığı bu ali təhsil ocağında dəyər və ideologiya işinin hansı prizmadan həyata keçirilməsi ilə bağlı sualını cavablandıran icraçı prorektor Fariz İsmayılzadə bildirib ki, ADA Universitetində azad mühit mövcuddur: "Fərqli siyasi baxışlar, fərqli dəyərlər ola bilər. Azadlıq olan yerdə inkişaf, tərəqqi vardır. Hər kəsin fikirlərinə hörmətlə yanaşılır. Amma universitetin fəaliyyətində üç prinsip - bilik, vətənpərvərlik və bacarıq əsasdır. Tələbələr bilikli olmalı, vətənpərvərlik hisslərini müxtəlif istiqamətlərdə təsdiq etməli, bilik və bacarıqlarını ölkəmizin inkişafına yönəltməlidirlər. Bax, bu amillərin sintezi ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcək".

# Bosniya və Herseqovinanın parlament nümayəndə heyəti Ağdamda erməni vəhşiliklərinin şahidi olub

Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının sədri Bakir İzetbeqoviçin başçılıq etdiyi nümayəndə heyəti Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edib. Səfərin məqsədi nümayəndə heyətini Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərində törətdiyi vəhşiliklər, cinayət izləri ilə tanış etmək olub.









AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov nümayəndə heyətinə Ağdamın tarixi, indiki vəziyyəti haqqında məlumat verib. Bildirib ki, Qarabağ xanlığının banisi Pənahəli xan XVIII əsrdə Ağdamda ağ daşdan ev tikdirib. Ağdam şəhərinin adı da buradan götürülüb. Qədim türk dilində isə Ağdam kiçik qala mənasını daşıyır. Ağdam şəhəri Qarabağ xanlığı dövründə inkişaf edib. Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ağdamda həm də Azərbaycan mədəniyyətinin ən vacib nümunəsi sayılan muğam geniş inkişaf edib.

Məlumat verilib ki, ermənilər 1993-cü il iyulun 23-də Ağdam şəhərini işğal etdikdən sonra BMT-nin Təhlükəsizlik Şurası 853 nömrəli Qətnamə qəbul edərək erməni hərbçilərindən dərhal Ağdamı tərk etməyə çağırıb. Amma buna baxmayaraq, BMT-nin qətnaməsi yerinə yetirilməyib. Ermənilər işğal dövründə Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Diqqətə çatdırılıb ki, ötən dövr ərzində Azərbaycan məsələni sülh yolu ilə, danışıqlarla həll etməyə çalışıb. Eyni zamanda bildirib ki, əgər sülh yolu ilə alınmasa, biz torpaqlarımızı hərb yolu ilə işğaldan azad edəcəyik. Belə də oldu. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük müharibədə Azərbaycan Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu zəfər qazandı. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı birgə bəyanata uyğun olaraq Ağdam rayonu noyabrın 20-də bir güllə atılmadan işğaldan azad edildi. Hazırda işğaldan azad edilmiş Ağdamın yenidənqurma, bərpa dövrü başlayıb.

Nümayəndə heyəti sonra Ağdam şəhərindəki İmarət qəbiristanlığına gəlib. Məlumat verilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar. İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən Xan sarayında inək və donuz saxlanılıb.

Ağdam Cümə məscidinə gələn qonaqlara məlumat verilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Bosniya və Herseqovina parlament nümayəndə heyəti Ağdam şəhərinin mərkəzi küçəsi, Ağdam dram teatrının qalıqları ilə də tanış olub. Bildirilib ki, teatr binasının qalıqları gələcəkdə açıq səma altında muzeydə saxlanılacaq.

Sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanına gələn nümayəndə heyətinə məlumat verilib ki, burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Sonda xatirə şəkli çəkdirilib.

# *Mixail QUSMAN:* "Minalanmış sahələrin xəritələrini almaq üçün nə mümkündürsə, etmək lazımdır"

TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Azərbaycanın Kəlbəcər rayonunda minaya düşərək həlak olmuş jurnalistlərin ailələrinə başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, M.Qusman "Moskva-Baku" portalına müsahibəsində deyib: "Təəssüf ki, jurnalist peşəsi ilbəil daha təhlükəli olur. Dünyanın ən müxtəlif yerlərindəki "qaynar" nöqtələrdə jurnalistlər tez-tez həlak olur. Lakin olduqca dinc peşə nümayəndələri olan jurnalistlərin müharibə başa çatandan, münaqişə bitəndən sonra həlak olması xüsusilə faciəvi, dözülməz dərəcədə ağrılı təsir bağışlayır. Mənim iki azərbaycanlı jurnalist həmkarım Azərbaycanın Kəlbəcər rayonunda minaya düşərək faciəvi şəkildə həlak olub. Onlardan biri uzun illər boyu TASS informasiya agentliyinin tərəfdaşı olan AZƏRTAC agentliyində çalışırdı. Bu jurnalistlər oraya sırf peşəkar işlərini yerinə yetirmək, həmin diyarda bu gün baş verən hadisələr barədə söhbət açmaq üçün getmişdilər".

Rusiyalı jurnalist qeyd edib ki, TASS agentliyi və onun baş direktoru Sergey Mixaylov agentliyin bütün kollektivi adından həlak olmuş jurnalistlərin ailələrinə dərin hüznlə başsağlığı veriblər.

Jurnalistlər həlak olan günün səhəri Avropa İnformasiya Agentlikləri Alyansının görüşü təşkil edilib. Həmin görüşdə Avropanın bütün aparıcı informasiya agentliklərinin rəhbərləri iştirak edirdi. Görüş iştirakçıları azərbaycanlı jurnalistlərin həlak olmasına görə dərindən kədərləndiklərini və onlarla həmrəy olduqlarını bildiriblər.

Mixail Qusman deyib: "Əlbəttə, dinc dövrdə insanların, jurnalistlərin ötən müharibənin qalıqları olan minalara düşərək həlak olması faktı ilə barışmaq mümkün deyil. Bununla əlaqədar, əlbəttə, minalanmış sahələrin xəritələrini əldə etmək, minaların zərərsizləşdirilməsi, belə partlayışlar nəticəsində dinc insanların, o cümlədən jurnalistlərin heç vaxt həlak olmaması üçün nə mümkündürsə, etmək lazımdır".

# *Vyetnam Xəbər Agentliyi:* "Azərbaycan jurnalistlərinin mina partlayışı nəticəsində həlak olmasından son dərəcə kədərləndik"

Vyetnam Xəbər Agentliyinin (VNA) baş direktorunun müavini Vu Viet Tranq Kəlbəcərdə xidməti fəaliyyətini yerinə yetirərkən mina partlaması nəticəsində AZƏRTAC-ın müxbirinin və AzTV-nin operatorunun həlak olması ilə əlaqədar agentliyimizin kollektivinə başsağlığı məktubu ünvanlayıb.

Məktubda deyilir: "İyunun 4-də AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun Kəlbəcər rayonunda peşə fəaliyyətini icra edərkən mina partlaması nəticəsində həlak olması barədə xəbər bizi son dərəcə kədərləndirdi və sarsıtdı.

AZƏRTAC-ın yaxın tərəfdaşı olan Vyetnam Xəbər Agentliyinin kollektivi adından bu gözlənilməz itki ilə əlaqədar həmkarlarımıza və həlak olmuş jurnalistlərin ailə üzvlərinə dərin hüznlə başsağlığı veririk".

Məktubda qeyd edilir ki, həlak olmuş jurnalistlərin xatirəsi həmkarlarının qəlbində daim yaşayacaqdır.

Xatırladaq ki, dost ölkələrin KİV rəhbərləri və media nümayəndələri də jurnalist həmrəyliyi nümayiş etdirirlər. Türkiyənin Anadolu agentliyinin rəhbəri Serdar Karagöz, TRT Televiziyasının Baş direktoru İbrahim Eren, Rusiyanın TASS agentliyinin baş direktoru Sergey Mixaylov, baş direktorun birinci müavini Mixail Qusman, Polşa Xəbər Agentliyinin rəhbəri Voytsex Surmaş, Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Sovolyov, "Exo Moskvı" radiostansiyasının baş redaktoru Aleksey Venediktov, TRT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Murad Akkoç, Misirin "Aldiplomacy" informasiya portalının baş redaktoru Əşrəf Əbu Urafə, "Asiaelyom" agentliyinin rəhbəri Əbubəkir Əl-Məcd, misirli jurnalist və politoloq Əhməd Tərabik, tanınmış fotojurnalist Reza Deqati və digərləri bu ağır günlərdə Azərbaycan mediasının yanında olduqlarını bildirib, AZƏRTAC-ın və Azərbaycan Televiziyasının kollektivlərinin, həyatını itirən jurnalistlərin ailə üzvlərinin kədərini bölüşüblər.

# Erməni faşizmi - terror və riyakarlıq onların siyasətidir

*Əvvəli 1-ci səh.*

Günahsız insanların ölümünə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozmağa və ölkəmizə qarşı terror siyasəti həyata keçirməyə davam edir: "Təəssüf ki, Azərbaycan tərəfinin ATƏT-in Minsk qrupu ölkələrinə, həmçinin müxtəlif beynəlxalq təşkilatlara mina xəritələrinin verilməsi məsələsində Ermənistana təzyiq göstərməsi ilə bağlı çağırışları heç bir nəticə vermədi. Jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir! Azərbaycan xalqı müzəffər xalqdır! Onun iradəsini sındırmaq və onu qorxutmaq qeyri-mümkündür!"

## Beynəlxalq ictimaiyyət başsağlığı verməklə kifayətlənməməli, Ermənistana təzyiq göstərməlidir

Əlbəttə ki, Ermənistanın israrla davam etdirdiyi mina terroru regionda qarşılıqlı etimada və sülh prosesinə təhdiddir. Digər tərəfdən beynəlxalq hüquqa və konvensiyalara görə, dinc əhaliyə təhlükə yaradan minalaşdırma hərbi cinayət sayılır. Jurnalistin istər müharibənin qızğın yerində, istərsə də ki, arxa cəbhədə işi dinc fəaliyyət olaraq dəyərləndirilir. Ona görə də belə bir hüququ təsbit edən beynəlxalq təşkilatlar bu hadisə ilə bağlı quru bəyanatla deyil, real addımlarla, səmimi mövqe ilə münasibət bildirməlidirlər.

BMT-nin aidiyyəti qurumları Azərbaycan ərazilərində qanunsuz olaraq basdırılmış minaların təmizlənməsi üçün böyük səylər göstərməli, minalı sahələrin xəritələrinin Ermənistandan alınmasını təmin etməlidirlər. Otuz il işğal altında saxlanılan Azərbaycan torpaqlarının təhlükəsiz qaydada minalardan təmizlənməsinə yardım göstərmək beynəlxalq birliyin mənəvi borcu, hüquqi öhdəliyidir.

Hadisəyə münasibət bildirən Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev vurğulayıb ki, faciə ilə bağlı bütün beynəlxalq təşkilatlara müraciət olunub, bu vəhşilik dünya ictimaiyyəti tərəfindən qınanmalıdır: "Hərbi əməliyyatlar zamanı jurnalistlərin təhlükəsizliyinin qorunması ilə əlaqədar xüsusi fəaliyyət proqramı var. Biz bütün bunların müqabilində beynəlxalq ictimaiyyətdən sadəcə, başsağlığı mesajları verilməsini gözləmirik, konkret bu hal və bunun günahkarı olan Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi siyasət pislənməlidir". Hikmət Hacıyev bu prosesi, minaların basdırılma əməliyyatlarını Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi siyasət kimi qiymətləndirib.

Əlavə edək ki, Azərbaycan son vaxtlar artmaqda olan mina təhlükəsi ilə bağlı həyəcan təbili çalaraq beynəlxalq aləmə edilən müraciətlərin, çağırışların miqyasını daha da genişləndirib və məsələnin həllinin təxirə salınmadan vacib olduğunu dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırıb. Ölkə ictimaiyyətinin tələbində, eləcə də ictimai-siyasi təşkilatların yaydıqları bəyanatlarda da bildirilir ki, bu cür əməllərə son qoyulması və beynəlxalq təşkilatların, xarici dövlətlərin Ermənistana təsir göstərmələri mütləqdir. Əgər lazımi təzyiq və təsir etmirlərsə, susqunluq göstərirlərsə, bu da Ermənistanın cinayətinə şərik olmaq deməkdir. Belə olarsa, Azərbaycan lazımi addımlar atmaqda, düşməni susdurmaqda tam sərbəstdir və baş verə biləcək hadisələrə görə məsuliyyət Ermənistanın üzərinə düşəcəkdir.

Nəhayət, dünya ictimaiyyəti görməli və anlamalıdır ki, minalanmış ərazilər problemi təkcə öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan üçün deyil, ümumilikdə region üçün bitib-tükənməyən faciələrin mənbəyidir. Buna görə də bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik istəyən, iqtisadi əlaqələrin genişlənməsində maraqlı olan bütün dövlətlər Ermənistanın sərhəd tanımayan müharibə cinayətlərinə sərt mövqe nümayiş etdirməlidirlər.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İlham Əliyev Azərbaycanı həm də idman ölkəsi edib

Əvvəli 1-ci səh.




"Formula-1" yarışlarının keçirilməsi üçün məkan seçimi bir sıra ciddi meyarlar əsasında aparılır. Son illərdə həyata keçirilən abadlıq tədbirləri nəticəsində siması büsbütün dəyişərək dünyanın ən gözəl, cəlbedici şəhərlərindən birinə çevrilən Bakının bu yarışlara evsahibliyi etməsi çox önəmlidir. İdman tədbiri televiziyalar vasitəsilə bütün dünyada yayımlanır. Statistik məlumatlara görə, dünyada bu yarışların təxminən yarım milyard nəfərlik auditoriyası var. Bu o deməkdir ki, nə qədər insan günlərlə yarışları izləyir. Bir-biri ilə yarışan idman avtomobilləri fonunda həm də Bakının turistlər üçün cəlbedici gözəlliklərini görüb seyr edir. Şəhər haqqında əlavə məlumatlar toplamağa başlayır. Onlarda Avropa ilə Şərqin unikal cəhətlərini özündə birləşdirən bu şəhərə qonaq gəlmək arzusu oyanır. Beləliklə, böyük bir kütlə ölkəmizi, paytaxtımızı özü üçün kəşf edir. Azərbaycana turist axını məqsədilə yeni imkanlar yaranır.

2016-cı ildə Bakıda keçirilmiş ilk "Formula-1" yarışından sonra bunun müsbət təsirlərini gördük. Azərbaycan paytaxtına xüsusilə ərəb ölkələrindən turistlərin böyük axını başlandı. Bu, bir tərəfdən turistlər üçün ölkəyə gəliş-gediş prosedurlarının sadələşdirilməsi ilə bağlı idisə, digər tərəfdən burada "Formula-1" yarışları kimi idman tədbirlərinin də böyük rolu vardı. Çünki belə yarışlar bir çox ölkələrdə keçirilir. O ölkələrdə bu tədbiri hər il maraqla izləyən böyük bir auditoriya var. "Formula-1" yarışlarından sonra həmin ölkələrdən olan turistlərin Azərbaycana böyük maraq göstərməsində yarışların onlarda yaratdığı Bakı təəssüratlarının çox böyük rolu vardı.

Məlum olduğu kimi, pandemiya dövründə bütün dünyada iqtisadiyyatın ən çox ziyan çəkən sahələrindən biri də məhz turizmdir. Eyni zamanda həyat normala dönərkən ən sürətli canlanmanın yaranacağı sahə də elə məhz bu sektor olacaq. Çünki dünyanın müxtəlif ölkələrində milyonlarla insan yenidən maraqlı məkanlara səyahətə başlamaq üçün məhdudiyyətlərin tez bitməsini intizarla gözləyir. Pandemiyanın verdiyi dərslər insanları bacardıqca səyahət etməyə, pul xərcləməyə, ömrü maraqlı yaşamağa həvəsləndirir. Ona görə həyat normala dönən kimi turizm sektoru çox sürətlə böyüyəcək. Elə buna görə də zəngin turizm ənənələrinə malik ölkələrdə post-pandemiya dövründə bu imkandan yararlanıb daha çox sayda turist cəlb etmək üçün yollar axtarılır. Genişmiqyaslı kampaniyalar həyata keçirilir. Belə bir dönəmdə ölkəmizdə "Formula-1" kimi idman yarışlarının təşkil edilməsi xüsusi əhəmiyyətə malikdir.

Bu cür idman yarışları Azərbaycanı, ölkəmizin iqtisadiyyatını bu tədbirlərdə iştirak edən böyük şirkətlərə də yenidən tanıdır və onların marağını cəlb edir. Elə bir dövrdə yaşayırıq ki, indi dünyamızda təəssüratlar, rəylər heç vaxt olmadığı qədər əhəmiyyətlidir. Bir çox qərarları, baxışları böyük kütlələrin ölkəyə, xalqa, hər hansı həqiqətlərə münasibəti formalaşdırır. Bu münasibətlərin düzgün formalaşdırılması üçün isə ölkələrin dünyaya düzgün yollarla tanıdılmasına çox böyük ehtiyac var. Bu cür yarışlar bütün dünyada ölkə haqqında doğru rəy yaratmaq üçün geniş imkandır.

## İdman və diplomatiya

Bu yarışları işıqlandırmaqdan ötrü dünyanın ayrı-ayrı aparıcı media qurumlarından jurnalistlər ölkəmizə gəlir. Onlar təkcə idman yarışı barədə deyil, Azərbaycan xalqının qonaqpərvərliyi, yüksək mədəniyyəti, ölkəmizin sürətli inkişafı haqqında da təəssüratlarını qələmə alırlar. Bu yarışlar xalqımızın nə qədər sülhpərvər olmasını, sabitliyə, inkişafa, bütün xalqlarla dostluğa, mehriban münasibətlərə, qarşılıqlı faydalı əməkdaşlığa can atmasını dünyaya göstərir.

Beynəlxalq ictimaiyyətin bizi bu keyfiyyətlərimizlə tanıması hər zaman vacibdir. Vətən müharibəsindəki şanlı qələbəmizi Ordumuzun gücü və Ulu Öndər Heydər Əliyevin xarici siyasət kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzun illər ərzində apardığı diplomatik iş sayəsində qazandıq. İndi isə ölkə rəhbərimizin həyata keçirdiyi məqsədyönlü siyasətlə qələbəmizi daha da möhkəmləndirməkdəyik.

Mədəniyyət tarixin bütün dövrlərində təsirli diplomatik vasitələrdən sayılıb. Müasir dünyamızda isə "yumşaq güc" vasitəsi kimi mədəniyyətin önəmi getdikcə artır. İdman da mədəniyyətin ayrılmaz hissəsidir və onun ən təsirli istiqamətlərindəndir. Azərbaycan son onilliklərdə bu vasitədən də çox böyük məharətlə istifadə edərək yüksək uğurlar qazanmaqdadır. Ölkəmizin bir-birinin ardınca beynəlxalq idman tədbirlərinə evsahibliyi etməsi bunun bir göstəricisidir.

## Birinci Avropa Oyunları

2015-ci ilin iyununda Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi belə tarixi hadisələrdən idi. Bu oyunların 2015-ci ildə paytaxtımızda təşkili hüququ Azərbaycana Avropa Olimpiya Komitəsi Baş Assambleyasının 8 dekabr 2012-ci il tarixli qərarı ilə verilmişdi. Birinci Avropa Oyunları tarixdə ilk dəfə Bakıda 2015-ci il iyunun 12-dən 28-dək keçirilmişdi.

Birinci Avropa Oyunlarının Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2013-cü il tarixli fərmanı ilə Təşkilat Komitəsi yaradılmışdı. Təşkilat Komitəsinə Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədr təyin edildi. Mehriban xanımın yüksək təşkilatçılıq məharəti ilə Birinci Avropa Oyunları dünyanın ən möhtəşəm mədəniyyət tədbirlərindən biri kimi tarixə yazıldı və qəlbi Azərbaycanla döyünən bütün soydaşlarımızın əbədi qüruruna çevrildi.

Yarışların möhtəşəmliyini yada salmaq üçün bəzi statistik faktları yenidən diqqətə çatdırırıq. Birinci Avropa Oyunlarında Avropanın 50 ölkəsindən 10 000 idmançı mübarizə aparırdı. Yarışlarda Bakının 11, Mingəçevirin 1 idman qurğusundan istifadə olunurdu. Oyunların təqviminə 30 idman növü daxil edilmişdi. Onlardan 24-ü Olimpiya, 6-sı qeyri-Olimpiya idman növü idi. Yarışlarda idmançılar 253 dəst medal uğrunda mübarizə aparırdılar.

Birinci Avropa Oyunlarının qədim od məbədi olan "Atəşgah"dan start götürmüş məşəli Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq 60 rayonun sakinlərinə bu Oyunların ruhunu yetirdi. Bakı-2015 Avropa Oyunlarının rəsmi simvolları Ceyran və Nar idi. Avropa Oyunlarının təşkili üçün 15 000 könüllü səfərbər olundu və bu tədbir ölkəmizdə könüllülük hərəkatının inkişafına da böyük təkan verdi.

Birinci Avropa Oyunlarının açılış mərasimi Bakı Olimpiya Stadionunda baş tutdu. Açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Monako Şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah Bin Musaad Bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britaniya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri var idi.

## Sülh və humanizm bayramı

Həmin gün Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya izləyicisi unudulmaz tarixi anların şahidi oldular. Açılış mərasiminin möhtəşəmliyi, kreativliyi indiyə qədər xoş təəssüratlarla xatırlanır və rəğbət yaradır. Azərbaycan bu mərasimdə ən yüksək Olimpiya standartlarını nümayiş etdirdi, mərasim öz gözəlliyi, rəngarəngliyi, heyrətamizliyi ilə yadda qaldı. Açılış mərasiminin kompozisiyası sülhü, humanizmi, insanlar, sivilizasiyalar arasında barışığı, Şərq və Qərbin harmoniyasını əks etdirirdi. Azərbaycan bu yarışlarla parlaq bir örnək göstərdi. Yeni standartlar müəyyənləşdirdi. Tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına Azərbaycanın layiqli evsahibliyi bu yarışların yüksək statusunu müəyyən etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə idmançını, nümayəndə heyətlərinin üzvlərini, bu Oyunları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi. Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bir mərasimlə Avropa Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.

Azərbaycan Prezidenti İlham Əliyev Birinci Avropa Oyunları haqqında təəssüratlarını belə bölüşmüşdü: *"Biz miqyasına görə Yay Olimpiya Oyunlarından sonra ən böyük beynəlxalq idman tədbirini təşkil etmək imkanı əldə etdik. Avropa idmanı üçün isə bu, ədaləti bərpa edən qərar oldu. Çünki bildiyimiz kimi, digər qitələr uzun illərdir ki, öz oyunlarını keçirirlər və yalnız Avropanın belə bir Oyunları yox idi. Buna görə də düşünürəm ki, bu, ədalətin təzahürü oldu. Çünki Olimpiya hərəkatının, Olimpiya ideyalarının, olimpizmin vətəni Avropadır. Bu, qədim Yunanıstanda başlanıb və daha sonra Baron de Kuberten onu bərpa etmişdir. İndi isə ədalət bərpa edildi və gördüyümüz işdən fərəhlənə bilərik. Biz gərgin çalışdıq, insanlarımızın, qonaqlarımızın və bütün Avropanın yaddaşında qalacaq səviyyədə Oyunları təşkil etdik".*

## "Gücümüz həmrəylikdədir"

Azərbaycan bu möhtəşəm nailiyyəti 12-22 may tarixləri arasında IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi ilə də davam etdirdi. Yada salaq ki, İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci Baş Assambleyası Azərbaycanın bu oyunlara evsahibliyinə Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən toplantısında qərar vermişdi.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış və bağlanış mərasimləri də dünyaya səs saldı. Bütün İslam aləmi milli düşüncə yükü, orijinallığı, dərin məzmunu, özünəməxsus maraqlı tərtibatı ilə insanı riqqətə gətirən bu möhtəşəm tədbirlərin sehrinə daldı, Azərbaycandan müsəlman dövlətlərinə ünvanlanmış birlik, həmrəylik çağırışlarına diqqət kəsildi.

İslam Həmrəyliyi Oyunlarında 21 idman növü üzrə 54 dövlətin 3000-dən çox idmançısı mübarizə aparırdı. Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlmişdi. İndiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmamışdı. "Birlik", "Sülh", "Hörmət", "Mükəmməllik" dəyərləri üzərində qurulan Oyunlar "Gücümüz həmrəylikdədir" devizi altında keçirildi. Rəsmi talismanlar - "İncə" və "Cəsur" Azərbaycanın milli sərvəti olan Qarabağ atlarının rəmzləri idi.

I Avropa Oyunlarından sonra IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə təşkili Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın sivilizasiyalararası dialoqa verdiyi töhfələri özündə simvolizə edirdi.

Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etməklə ölkəmizin Yer üzünə sülh və əmin-amanlıq gətirmək, daha sabit, gərginliklərdən, qanlı qarşıdurmalardan uzaq bir dünya qurmaq arzusunu və bəşəriyyətin tərəqqipərvər qüvvələri ilə birgə bu niyyəti gerçəkləşdirmək əzmini göstərdi, həm də bu dəyəri layiq olduğu ucalıqlara yüksəltdi.

Azərbaycan Respublikası Prezidentinin ölkəmizdə elan olunmuş "İslam həmrəyliyi ili"ndə Bakıda keçirilən bu möhtəşəm tədbirə verdiyi mənəvi-siyasi qiyməti yada salaq: *"Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. ..."İslam həmrəyliyi ili"nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, islamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir".*

İslamı siyasi vasitə kimi deyil, məhz mənəvi dəyər kimi uca tutan dövlətimiz bu böyük dəyərə qarşı qərəzli hücumların önünə keçdi. Diqqəti onun işıqlı cəhətlərinə, xoş məramlarına yönəltdi. İslamın sülh, qardaşlıq, ədalət və humanizm ruhunda təqdim olunmasının, terror çamurundan təmizlənməsinin silahın, xurafatın deyil, yalnız mədəniyyətin gücünə tapınmalı olan islam ümmətinin həmrəyliyindən keçdiyini təntənəli açılış və bağlanış mərasimlərinin parlaq məzmunu ilə bir daha anlatdı.

I Avropa Oyunlarında da, IV İslam Həmrəyliyi Oyunlarında da Azərbaycan cəmiyyəti bir daha sarsılmaz birlik, həmrəylik, vətənpərvərlik nümayiş etdirdi. Tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu və sevinclə uğurlarımızı alqışladı, qürur hissi keçirdi. Bu gün Azərbaycanda mövcud olan və Vətən müharibəsindəki şanlı qələbəmizin də rəhninə çevrilən milli vəhdətimizdə, ölümün gözünə dik baxaraq torpaqlarımızı düşməndən azad etmiş vətənpərvər gənc nəslin yetişməsində bu cür tədbirlərin təlqin etdiyi dəyərlərin, milli ruhun da müstəsna əhəmiyyəti var.

## 42-ci Şahmat Olimpiadası

Azərbaycanın son illərdə evsahibliyi etdiyi mühüm idman tədbirlərindən daha biri isə 2016-cı ilin 1-14 sentyabr tarixlərində Bakıda keçirilmiş 42-ci Şahmat Olimpiadası idi. Beynəlxalq Şahmat Federasiyasının (FİDE) təşkil etdiyi Olimpiadaya Açıq və Qadınlar turniri, eləcə də dünyada şahmat oyununu təbliğ etmək üçün nəzərdə tutulan bir sıra tədbirlər daxil edilmişdi. Azərbaycan bu tədbirə möhtəşəm evsahibliyi ilə də böyük bir tarix yazdı. Bütün dünyada şahmatsevərlərin rəğbətini qazandı.

❖ ❖ ❖

Bütün bunlar Azərbaycanın idman ölkəsi statusunu təsdiqləyən tarixi faktlardır. Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin, beynəlxalq idman tədbirlərinin bütün təşkilati işlərinə zəhmət sərf edən ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük əməyi var. Azərbaycan idman ölkəsi statusunu, bu sahədə nailiyyətlərini məhz onların zəhməti sayəsində əldə edib. Zaman keçdikcə bu tarixi faktların, nailiyyətlərin sırası yeniləri ilə daha da zənginləşəcək. Özünü qəlbən Azərbaycana bağlı sayan hər kəs Vətənin idman və mədəniyyət işığında, ümumən dünyamızda sülhə, humanizmə, ədalətin zəfərinə verdiyi töhfələrlə hər zaman qürur duyacaq.

***İradə ƏLİYEVA, "Azərbaycan"***








# Fransadan Azərbaycanadək...

## 61 il öncə Parisdə başlayan Avropa futbol çempionatının XVI yarışlarına Bakı da evsahibliyi edəcək

Əvvəli 1-ci səh.

Bu turnir haqqında danışmazdan əvvəl qitə çempionatının tarixinə səyahət edək.

Avropa çempionatının keçirilməsi təklifini ilk dəfə Fransa Futbol Federasiyasının baş katibi Anri Delone irəli sürüb. 1919-cu ildə Jül Rime Fransa Futbol Federasiyasının prezidenti olarkən Delone onun tövsiyəsi ilə həmin federasiyanın baş katibi vəzifəsini tutub. 1927-ci ildə Anri Delone FİFA-nın prezidentinə xidməti məktub göndərərək yığma komandaların Avropa çempionatı layihəsini təklif edib. Lakin qitə çempionatının keçirilməsi təklifi qəbul edilməyərək təxirə salınıb.

1950-ci ildə dünya çempionatı başa çatdıqdan sonra İtaliyanın və dünyanın görkəmli futbol xadimi Ottorino Barassi Avropa çempionatı keçirmək uğrunda Deloneyə dəstək olmaq üçün fəaliyyətə başlayıb. O, çıxışlarından birində Avropa komandalarının dünya çempionatlarındakı uğursuzluqlarının səbəbini təcrübəsizliklə izah edib. Qeyd edib ki, Cənubi Amerikada qitə çempionatları 1916-cı ildən müntəzəm olaraq keçirilir, avropalıların isə bu cür təcrübələri yoxdur.

Lakin FİFA 1952-ci ilin fevralında Avropa çempionatı keçirmək planını növbəti dəfə rədd edib. Beynəlxalq futbol təşkilatının bu mövqeyi Avropanın bir çox futbol xadimlərinin etirazı ilə qarşılanıb. Bunun nəticəsi olaraq elə həmin ilin iyununda Bazeldə FİFA-dan gizli 7 nəfərin iştirakı ilə görüş keçirilib. Görüşdə italiyalı Ottorino Barassi, fransız Anri Delone, belçikalı Joze Kray, şotlandiyalı Georq Qrem, Macarıstanın idman nazirinin müavini Qustav Şebeş, Avstriyanın ədalət naziri Yozef Geryu və danimarkalı Ebbe Şvarts iştirak ediblər.

"Yeddiliyin görüşü" əsl tarixi hadisə olub, onun planları isə tezliklə həyata keçirilib. Belə ki, 1952-ci il iyunun 22-də Berndə Avropa Futbol Assosiasiyaları İttifaqının - UEFA-nın yaradılması elan edilib. UEFA-nın ilk prezidenti Danimarka Futbol Federasiyasının rəhbəri Ebbe Şvarts, baş katibi isə Anri Delone olub. Bern şəhərində UEFA-nın yaradılması haqqında elan olunan bəyannaməni 25 ölkə dəstəkləyib.

1957-ci ilin əvvəllərində FİFA-nın 2-ci prezidenti Stenli Rouz (İngiltərə) Avropa çempionatının keçirilməsi haqqında öz layihəsini irəli sürüb. Avropa çempionatının keçirilməsi haqqında son layihə isə 1958-ci il iyunun 6-da UEFA-nın Stokholmda keçirilmiş konqresində təsdiq edilib. Yarışlar Avropa Millətlərinin Kuboku, qalibə verilən rəsmi mükafat isə "Anri Delone" kuboku adlandırılıb.

Beləliklə, azarkeşlərin intizarda olduqları futbol üzrə ilk Avropa çempionatı 1960-cı ildə Fransada keçirilib. Finalda Yuqoslaviya yığmasına 2:1 hesabı ilə qalib gələn SSRİ ilk Avropa çempionu kimi tarixə düşüb. Onlara fransız zərgər Mişel Şobinyonun hazırladığı gümüş kubok təqdim olunub.



1964-cü ildə isə Avropa çempionatına İspaniya evsahibliyi edib. Madriddə keçirilən final matçında SSRİ yığmasına 2:1 hesabı ilə qalib gələn meydan sahibləri qitənin ən güclüsü olublar. 1968-ci ildə İtaliyada təşkil edilən turnirdə isə doğma meydan amilindən istifadə edən italyanlar finalda Yuqoslaviya yığmasını 2:0 hesabı ilə məğlub edərək Avropa çempionu titulunu qazanıblar.

1972-ci ildə Qərbi Almaniya finalda SSRİ yığmasına 3:0 hesabı ilə qalib gələrək Belçikada təşkil olunan sayca 4-cü qitə çempionatının qalibi olub. Qeyd edək ki, almanların heyətində Müller, Braytner, Netser və Frans Bekkenbauer kimi güclü oyunçular iki il sonra komandanın dünya çempionatındakı qələbəsini də təmin ediblər. Xatırladaq ki, həmin çempionatda Azərbaycan futbolunun yetirməsi Anatoli Banişevski də SSRİ yığmasının heyətində yer almışdı.

1976-cı ildə Yuqoslaviyada keçirilən turnirin finalında isə Çexoslovakiya ilə Qərbi Almaniya yığmaları üz-üzə gəlib. Görüşün əsas vaxtı heç-heçə (2:2) başa çatdığından qalibi müəyyənləşdirmək üçün 11 metrlik cərimə zərbələri təyin edilib. Penalti zərbələrini daha dəqiq yerinə yetirən Çexoslovakiya futbolçuları qalib gələrək (5:3) Avropa çempionu adına sahib olublar.

1980-ci ildə İtaliyada təşkil edilən Avropa çempionatının finalında Belçika və AFR yığmaları qarşılaşıblar. Romada keçirilən matçda Belçikaya 2:1 hesabı ilə qalib gələn almanlar tarixlərində 2-ci dəfə Avropa çempionu olublar.

1984-cü ildə Fransada təşkil olunan çempionatda meydan sahibləri ilk oyunda göstərdikləri yüksək ustalıq və texnika ilə turnirin favoritləri olduqlarını nümayiş etdiriblər. Parisdə final matçında İspaniya yığmasına 2:0 hesabı ilə qalib gələn fransızlar Avropa çempionu tituluna yiyələniblər.

1988-ci ildə Qərbi Almaniyada keçirilən turnirin finalında isə Hollandiya ilə SSRİ yığmaları üz-üzə gəlib. Görüş hollandların 2:0 hesablı qələbəsi ilə başa çatıb.

1992-ci ildə İsveçdə təşkil olunan turnirin finalında Danimarka Almaniyaya 2:0 hesabı ilə qalib gələrək Avropa çempionu olub. Onu da qeyd edək ki, bu çempionluğun maraqlı tarixçəsi var. Belə ki, gələcək Avropa çempionunun adı iştirakçılar sırasında yox idi. Final mərhələsinə vəsiqə qazanan Yuqoslaviya yığması idi. Lakin bu ölkədə alovlanan etnik müharibələr federativ dövlətin qitə birinciliyində iştirakını mümkünsüz edib və onun yeri Danimarka millisinə verilib. Danimarkalılar taleyin onlara bəxş etdiyi bu nadir şansdan tam gücü ilə istifadə edə biliblər.

1996-cı ildə İngiltərədə keçirilən turnirin finalında Almaniya ilə Çexiya yığmaları qarşılaşıb. Maraqlı mübarizə şəraitində keçən görüşün əsas vaxtı 1:1 hesabı ilə başa çatıb. Əlavə vaxtın birinci hissəsində almanların heyətində Oliver Birhoff çempionatın qələbə qolunu vurub. Qeyd edək ki, "qızıl qol" qaydasına görə, əlavə vaxtda ilk qolu vuran komanda qalib elan olunurdu.

2000-ci ildə tarixdə ilk dəfə olaraq Avropa çempionatına iki ölkə - Hollandiya və Belçika evsahibliyi edib. Turnirin finalında Fransa və İtaliya yığmaları üz-üzə gəlib. Görüşün əsas vaxtı heç-heçə (1:1) başa çatdığından 30 dəqiqə əlavə vaxt təyin edilib. Əlavə vaxtın 12-ci dəqiqəsində fransızların heyətində David Trezeqe "qızıl qol"un müəllifi olub - 2:1.

2004-cü ildə Portuqaliyada keçirilən çempionatda Yunanıstan qalib olmaqla böyük sensasiyaya imza atıb. Turnirin açılış oyununda olduğu kimi, finalda da ev sahibi Portuqaliya ilə Yunanıstan qarşılaşıb. Görüşün taleyini 57-ci dəqiqədə Angelos Xaristeasın vurduğu qol həll edib - 1:0. Beləliklə, yunanlar ilk dəfə Avropa çempionu olublar.

2008-ci il Avstriyada və İsveçrədə təşkil edilən turnirin finalında isə İspaniya və Almaniya yığmaları qarşılaşıb. Daha maraqlı oyun nümayiş etdirən ispanlar 1:0 hesabı ilə qalib gələrək Avropa çempionu adını qazanıblar.

2012-ci ildə Ukraynada və Polşada keçirilən Avropa çempionatında İspaniya millisi İtaliya yığmasına 4:0 hesabı ilə qalib gələrək ardıcıl 2-ci dəfə qitənin ən güclüsü olub.

2016-cı ildə Fransada keçirilən qitə çempionatının finalında isə meydan sahibləri ilə Portuqaliya yığması qarşılaşıb. Ederin vurduğu yeganə qol sayəsində qalib gələn portuqaliyalılar tarixlərində ilk dəfə Avropa çempionu olublar.

Beləliklə, İspaniya 3 (1964, 2008, 2012), Almaniya 3 (1972, 1980, 1996), Fransa 2 (1984, 2000), İtaliya (1968), SSRİ (1960), Çexiya (1976), Hollandiya (1988), Danimarka (1992), Yunanıstan (2004) və Portuqaliya (2016) hərəsi bir dəfə Avropa çempionu olublar.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Buskets koronavirusa yoluxdu



İspaniya millisinin futbolçusu Serxio Buskets koronavirusa yoluxub. Yarımmüdafiəçinin testi pozitiv çıxıb. Buskets "Avro-2020" ərəfəsində təcrid olunub. Bu üzdən futbolçu Litva ilə iyunun 8-dəki yoxlama oyununu buraxıb.

Qeyd edək ki, İspaniya millisi "Avro-2020"də E qrupunda İsveç, Polşa və Slovakiya yığmaları ilə mübarizə aparacaq.

# İtaliyada zədə şoku



İtaliya millisi itki ilə üzləşib. Belə ki, komandanın yarımmüdafiəçisi Stefano Sensi zədələnib. Tibbi müayinənin ardından "İnter"in yarımmüdafiəçisinin əzələsində problem aşkarlanıb. Bu səbəbdən Sensi "Avro-2020"nin iştirak ərizəsindən çıxarılıb. Onu kimin əvəzləyəcəyi hələlik məlum deyil.

Qeyd edək ki, İtaliya millisi Avropa çempionatında A qrupunda Türkiyə, İsveçrə və Uels yığmaları ilə mübarizə aparacaq.

# Qarabağ müharibəsində Ermənistan ordusunun tərkibində döyüşmüş livanlı muzdlu terrorçunun məhkəməsi keçirilib

İyunun 8-də Yasamal Rayon Məhkəməsində Qarabağ müharibəsində Ermənistan ordusunun tərkibində döyüşmüş livanlı muzdlu terrorçu Eulcekcian Viken Abrahamın cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə yerli və xarici kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, beynəlxalq statuslu nümayəndələr iştirak ediblər.

Məhkəmə iclasında şahid qismində tanınan və hazırda Livanda olan Maral Nazaryanın istintaqa verdiyi ifadə videoformatda təqdim edilib. M.Nazaryan dindirilərkən təqsirləndirilən şəxsin pul müqabilində Qarabağda azərbaycanlılara qarşı döyüşdüyünü bildirib.

İclasda Eulcekcian Viken Abrahamın telefonunda onun səngərdə olduğu və minaatanı tam hazır edərək döyüş vəziyyətinə gətirdiyi, eləcə də sosial şəbəkədə digər muzdlularla paylaşdığı görüntülər elan edilib.

Məhkəmə prosesinin növbəti iclası iyunun 11-nə təyin olunub.

Xatırladaq ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətlərinin mayın 5-də yaydıqları birgə məlumata əsasən, Livan Respublikasının vətəndaşı Eulcekcian Viken Abraham və qeyrilərinin maddi mükafat müqabilində muzdlu kimi mütəşəkkil dəstə halında birləşib Ermənistan silahlı qüvvələri tərkibində Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri faktları əsasında Azərbaycan Respublikası DTX-nin İstintaq Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.

İstintaqla müəyyən olunub ki, Livan Respublikasının vətəndaşı, Beyrut şəhər sakini, 1979-cu il təvəllüdlü Eulcekcian Viken Abraham 2020-ci il sentyabrın 29-da Livan Respublikasının vətəndaşı Hovak Kikiyanın ilkin olaraq, 2500 ABŞ dolları məbləğində maddi mükafat müqabilində muzdlu kimi Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində hərbi əməliyyatlarda iştirak etmək təklifini qəbul edib. O, bu məqsədlə həmin gün digər şəxslərlə mütəşəkkil dəstə halında qəsdən Ermənistan ərazisindən Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar keçib digər muzdluların da olduğu ərazilərə gəlib.

Həmçinin Viken Eulcekcian və maddi mükafat müqabilində muzdlu kimi döyüşən digər şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində qanunsuz olaraq əldə etdikləri odlu silahlardan, döyüş sursatlarından və komplekt hissələrindən istifadə etməklə Azərbaycan Respublikası vətəndaşlarına və Ordusuna qarşı terrorçuluq fəaliyyətində iştirak ediblər.

Törətdiyi cinayət əməllərinə görə Viken Eulcekciana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114.3-cü (muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı), 214.2.1-ci (terrorçuluq qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Mayın 5-də cinayət işi üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün məhkəməyə göndərilib.

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 28 aprel 2021-ci il tarixli 88 (8681) saylı buraxılışında dərc olunmuş Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən "Maşın və avadanlıqlar" maddəsi üzrə bütün növ avadanlıqların satın alınması və "Digər malların alınması" maddəsi üzrə uşaq müəssisələrində uşaqlarla məşğələlər üçün müxtəlif ləvazimatların və mətbəx ləvazimatlarının satın alınması məqsədilə elektron açıq tenderlərində dövlət satınalmalarının vahid internet Portalında texniki problem mövcud olduğundan tələb olunan sənədlərin son təqdim olunma tarixi 10 iyun 2021-ci il saat 15:00-dək, təkliflərin son təqdim olunma tarixi 21 iyun 2021-ci il saat 17:00-dək, zərflərin açılış tarixi 22 iyun 2021-ci il saat 15:00-dək uzadılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi büstün satın alınması ilə bağlı kotirovka sorğusu elan edir

İddiaçı öz təklifini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun hazırlamalıdır. Təklif qapalı zərfdə, imzalanıb və möhürlənərək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına (Bakı şəhəri, H.Zərdabi, 80 ünvanı) 21 iyun 2021-ci il saat 11:00-a qədər təqdim edilməlidir.

Kotirovka təkliflərinin zərfləri 21 iyun 2021-ci il saat 12:00-da Bakı şəhəri, H.Zərdabi, 80 ünvanında açılacaqdır. Əlavə məlumatı Tender komissiyasından ala bilərsiniz. **Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## BİLDİRİŞ

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Oynaq endoprotezləşməsində istifadə olunan sərfiyyat mallarının satın alınması üçün 16 may 2021-ci il tarixdə elan edilmiş açıq tender üzrə iddiaçının sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi 10 iyun 2021-ci il saat 11:00-dək, tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə 21 iyun 2021-ci il saat 11:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 22 iyun 2021-ci il tarixdə saat 11:00-da keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya Publik Hüquqi şəxsi "Müayinə Sorğu Sistemi" proqramının satın alınması üzrə açıq tender üsulu ilə keçirilmiş müsabiqənin Tender komissiyasının qərarına əsasən "PROSYS" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş "PROSYS" MMC-ilə ƏDV daxil 94518.00 AZN (Doxsan dörd min beş yüz on səkkiz manat 00 qəpik) məbləğində müvafiq alqı-satqı müqaviləsi imzalanmışdır.

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "COVID-19 xəstəliyinin virusunu müəyyənləşdirə bilən laboratoriya testlərinin aparılması xidmətləri"nin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün bu sahədə ixtisaslaşmış potensial malgöndərənlər (podratçılar) dəvət olunur. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Tender komissiyasına təqdim edə bilərlər.

İştirak haqqı: 100,00 (bir yüz) AZN

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı:**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri:**
**"Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün ödənilən iştirak haqqı heç bir halda geri qaytarılmır.

Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *sorğuda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri və tender təklifi ilə bank təminatı sənədlərini 21 iyun 2021-ci il saat 11:00-dək təqdim etməlidirlər. İddiaçıların təklifləri 22 iyun 2021-ci il saat 11:00-da Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (Ünvan: AZ1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134) açılacaqdır.

Tel: (012) 404 04 01, faks: (012) 404 04 03.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## BİLDİRİŞ

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin www.tender.gov.az saytında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı tərəfindən mətbəə mallarının satın alınması üçün elan edilmiş kotirovka sorğusunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 24 may 2021-ci il tarixli yekun protokoluna əsasən "VAHİD-M" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən cəmiyyətin balansında olan xidməti minik avtomobillərinə servis və texniki xidmətlərin göstərilməsi işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 01 iyun 2021-ci il tarixli qərarına əsasən, "SCANDİNAVİAN AUTO" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən 18 may 2021-ci il tarixdə e.tender.gov.az saytında elan olunmuş "Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin davam etdirilməsi məqsədilə tələb olunan dezinfeksiyaedici məhlulların alınması"nın satın alınması məqsədilə keçiriləcək açıq tenderdə tələb olunan sənədlərin son təqdim olunma tarixi elektron sistemdə yaranmış problemlə əlaqədar olaraq 11.06.2021-ci il saat 11:00 dək, tender təklifi ilə bank təminatı sənədlərinin qəbulu tarixi 22.06.2021-ci il saat 18:00 dək və zərflərin açılış tarixi 23.06.2021-ci il saat 11:00-dək uzadılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 17 may 2021-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsi ilə **mərkəzdənqaçma nasosların ehtiyat hissələrinin** satın alınması məqsədilə dərc edilmiş tenderində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəsmi vahid internet Portalında (etender.gov.az) baş vermiş texniki problemi nəzərə alaraq tenderdə iştirak etmək üçün tələb olunan sənədlər (tender təklifi və bank təminatı istisna olmaqla) 16 iyun 2021-ci il saat 18.00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 24 iyun 2021-ci il saat 18:00-a, təkliflərin açılışı isə 25 iyun 2021-ci il saat 18:00-a təyin edilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs Məmmədyar Musayev, 431 47 67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 24 may 2021-ci il tarixdə "2021-ci il üçün akademiyanın pedaqoji fəaliyyəti ilə əlaqədar elmi işlərin qiymətləndirilməsi, müəllifliyinin və müstəqilliyinin yoxlanılması məqsədilə antiplagiat sistemində istifadəçi interfeysinin satın alınması"na dair keçirdiyi kotirovka sorğusu prosedurunda "PLAGİAT.PL" Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikasındakı filialı qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 02 iyun 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC hidroizolyasiya məhsullarının satın alınması məqsədilə təkliflər sorğusu keçirir

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini 22 iyun 2021-ci il saat 16:00-a qədər təqdim etməlidirlər.

Müsabiqə 23.06.2021-ci il tarixdə M.Rəfili, 16 ünvanında saat 16:00-da keçiriləcəkdir.

Maraqlanan şəxslər (+99412) 490-01-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

E-mail: Rauf Yusifov@metro.gov.az

***Tender komissiyası***

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi müxtəlif növ xüsusi ayaqqabıların satın alınması üzrə *açıq tender elan edir*

Tender proseduru Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinin tələblərinə uyğun olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə açıq tender üsulu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilir. Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üzrə təkliflərini elektron qaydada təqdim edə bilərlər.

**Müxtəlif növ xüsusi ayaqqabıların satın alınması**
**İştirak haqqı: 400 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Bankın adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**
**Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi**
**H/h: AZ11CTRE00000000000002658402**
**VÖEN: 1401347471**
**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**
**Əlaqə telefonu: (012) 512-47-35**
**Elektron poçt ünvanı:info.mtti@fhn.gov.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayışı;*
- *iddiaçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması haqqında müvafiq vergi orqanından arayışı;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyekti meyarlarına uyğun olması barədə arayış;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 45 bank günü müddətində icra olunmalıdır.

Tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq vahid internet Portalı www.etender.gov.az vasitəsilə elektron qaydada keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 iyul 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 12 iyul 2021-ci il saat 17:00-a qədər elektron qaydada təqdim etməlidirlər.

İddiaçıların təklifləri 13 iyul 2021-ci il saat 17:00-da Portal vasitəsilə elektron qaydada açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır.*

***Tender komissiyası***

## MƏLUMAT

"Thales International Vestern Countries" Fərdi Məhdud Məsuliyyətli Cəmiyyəti 14 aprel 2021-ci il tarixdə Mehmet Sahanin "Thales International Vestern Countries" Fərdi Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyində təmsil etməsi ilə bağlı etibarnaməsini ləğv etmişdir. Bundan sonra Sahan "Thales Group"un əməkdaşı deyildir və 14 aprel 2021-ci il tarixdən etibarən "Thales Group"un maraqlarını təmsil etmir. "Thales Group"a yeni qanuni təmsilçi təyin edilmişdir.

## BİLDİRİŞ

Dövlət satınalmalarının vahid internet Portalında texniki nasazlıqla əlaqədar olaraq Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin veb saytın yaradılması və texniki dəstək xidmətlərinin satın alınması üçün elan etdiyi açıq tenderin qiymət təklifinin son göndərilmə tarixi 17.06.2021-ci il saat 15:00-a, zərflərin açılış tarixi 18.06.2021-ci il saat 15:00-a təyin edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 16 saylı regional ərazi filialının Balakən qəbul şöbəsinin inzibati binasının cari təmir işlərinin satın alınması məqsədilə 01.03.2021-ci il tarixdə elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində "MAC CONSTRUCTİON" QSC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin 2, 3, 4 saylı Bakı DOST Mərkəzləri və 6 saylı DOST Mərkəzi üçün taktil plitələrin satın alınması məqsədilə elan edilən açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 03 iyun 2021-ci il qərarına əsasən "Kəmər-Qaya" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin səmərəli təşkili ilə bağlı 1C proqram təminatının satın alınması məqsədilə elan edilən açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 02 iyun 2021-ci il qərarına əsasən "Optima Business Solutions" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dövlət satınalmalarının vahid internet Portalında yaranmış texniki problemlə əlaqədar olaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi tərəfindən təsərrüfat mallarının satın alınmasına dair 17 iyun 2021-ci il tarixdə keçirilməsi nəzərdə tutulan tenderdə zərflərin açılış tarixi 23 iyun 2021-ci il tarixə dəyişdirilmişdir. Müvafiq olaraq ilkin sənədlərin qəbulu 11 iyun 2021-ci il saat 17:00-a, tender təklifləri ilə bağlı zərflərin qəbulu 22 iyun 2021-ci il saat 17:00-a təyin edilir.

***Tender komissiyası***

# AZANS yüksək beynəlxalq tələblərə sadiq olduğunu bir daha təsdiqlədi

**"Azərbaycan Hava Yolları" QSC-nin tərkibinə daxil olan "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) bütün beynəlxalq aviasiya təşkilatlarının tələblərinə yüksək səviyyədə cavab verdiyini uğurla təsdiq edib.**



"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, AZANS ISO 9001: 2008 (keyfiyyətin idarə edilməsi sistemi) beynəlxalq standartına uyğunluğunu təsdiqləyərək yenidən sertifikatlaşdırma üzrə auditdən keçib.

ICAO tələblərinə uyğun olaraq həyata keçirilən audit sınaq, təftiş və sertifikatlaşdırma sahəsində beynəlxalq səviyyədə tanınmış və müstəqil ekspert - Almaniyanın "DQS" şirkəti tərəfindən aparılmışdır. Həmin audit şirkəti Avropada aviaşirkətlərə xidmət göstərilməsi üzrə liderlərdən biri hesab edilən Almaniyanın "DFS" aeronaviqasiya təchizatçısının sertifikatlaşdırma orqanıdır.

Audit AZANS HHİ-də keyfiyyətin idarə edilməsi sisteminin işini əvvəlki yenidən sertifikatlaşdırma dövründə olduğu kimi, bir daha yüksək qiymətləndirmişdir.

Qeyd etməliyik ki, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün əsas imkanlardan biri IATA ilə birlikdə Azərbaycanın hava məkanında üç səviyyəli uçuşların təhlükəsizliyini idarəetmə sisteminin tətbiqi olmuşdur.

COVID-19 pandemiyası səbəbindən aviasiya sənayesində baş verən böhrana baxmayaraq, "Azəraeronaviqasiya" HHİ mülki aviasiya uçuşlarının təhlükəsizliyini lazımi səviyyədə təmin etmək üçün böyük səylər göstərmişdir. AZANS həmçinin Azərbaycanın hava məkanının istifadəçiləri üçün aeronaviqasiya xidmətlərinin keyfiyyətini təkmilləşdirməyə davam etmişdir.

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi zabit heyəti (kiçik və yuxarı heyət) üçün gündəlik geyim dəstləri və şəxsi heyət üçün müxtəlif növ əşya-geyimlərin satın alınması üzrə *açıq tender elan edir*

Tender proseduru Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinin tələblərinə uyğun olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə açıq tender üsulu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilir. Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üzrə təkliflərini elektron qaydada təqdim edə bilərlər.

**Zabit heyəti (kiçik və yuxarı heyət) üçün gündəlik geyim dəstləri və şəxsi heyət üçün müxtəlif növ əşya-geyimlərin satın alınması**
**İştirak haqqı: 500 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Bankın adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**
**Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi**
**H/h: AZ11CTRE00000000000002658402**
**VÖEN: 1401347471**
**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**
**Əlaqə telefonu: (012) 512-47-35**
**Elektron poçt ünvanı:info.mtti@fhn.gov.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayışı;*
- *iddiaçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması haqqında müvafiq vergi orqanından arayışı;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyekti meyarlarına uyğun olması barədə arayış;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 45 bank günü müddətində icra olunmalıdır.

Tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq vahid internet Portalı www.etender.gov.az vasitəsilə elektron qaydada keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 iyul 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 12 iyul 2021-ci il saat 17:00-a qədər elektron qaydada təqdim etməlidirlər.

İddiaçıların təklifləri 13 iyul 2021-ci il saat 17:00-da Portal vasitəsilə elektron qaydada açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Dövlət satınalmalarının vahid internet Portalında texniki problem mövcud olduğundan "Bakı Metropoliteni" QSC tərəfindən müxtəlif növ mebel, mebel məmulatlarının və aksesuarlarının satın alınması üzrə 18 iyun 2021-ci il saat 11:30-da keçirilməsi nəzərdə tutulmuş açıq tenderin vaxtı 23 iyun 2021-ci il saat 12:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 iyun 2021-ci il saat 12:30-a qədər, tender təklifi və bank təminatını isə 22 iyun 2021-ci il saat 12:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC "Bakı Metropoliteni" QSC-nin stansiyaları, binaları, qurğuları və avadanlıqlarının təmizlənməsi işlərinin satın alınması məqsədilə təkliflər sorğusu keçirir

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini 22 iyun 2021-ci il saat 15:00-a qədər təqdim etməlidirlər.

Müsabiqə 23.06.2021-ci il tarixdə M.Rəfili, 16 ünvanında saat 15:00-da keçiriləcəkdir.

Maraqlanan şəxslər (+99412) 490-01-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

E-mail: Rauf Yusifov@metro.gov.az

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik

**RAMİZ MAHMUD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları

**SOLMAZ NƏBİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik

**RAMİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Aerokosmik Agentliyinin baş direktoru Natiq Cavadov və agentliyin kollektivi Coğrafiya İnstitutunun direktoru, akademik

**RAMİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə

e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5079
Sifariş 1026
Qiyməti 40 qəpik